www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2-3 fevral 2019-cu il Şənbə № 25 (7195) Qiyməti 60 qəpik

**Xəbər**

### Yaxın Şərqdə döyüşən azərbaycanlıların faciəli taleyi

yazısı səh.14-də

**Gündəm**

### "Hər bir gəncin əsas vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək olmalıdır"



Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunan respublika toplantısında iştirak etdi

yazısı səh.3-də

### Azərbaycan mətbuatında ciddi islahat gedir - qəzetlərin sayı azalacaq...

yazısı səh.4-də

### Hacıbaba Əzimovdan müxalifətin yeni hərəkatına ittiham

yazısı səh.11-də

### Hakimiyyət Rəsulzadənin abidəsini ziyarət etsə...

yazısı səh.4-də

### Avropa və İran arasında münasibətlərdə yeni mərhələ

yazısı səh.14-də

### Qarabağ Komitəsi mitinq üçün BŞİH-ə müraciət göndərdi

yazısı səh.12-də

### "Sülhə Azərbaycanı yox, Ermənistanı hazırlamaq lazımdır" - Sülhəddin Əkbər

yazısı səh.9-da

### "Müxalifətdə proseslər dinamikliyə keçəcək..." - partiya sədri

yazısı səh.12-də

### BMT-nin 4 qətnaməsinin ömrü nə qədərdir?

yazısı səh.6-da

### "Accessbank" Tovuzda krediti borcludan deyil, zamindən alır

yazısı səh.7-də

### "Bu gün manatın məzənnəsinə heç bir kənar faktor təsir etmir"- ekspert

yazısı səh.7-də

# MOSKVA PAŞİNYANA "KONFET" ƏVƏZİNƏ, KAĞIZINI GÖSTƏRDİ - 4 MÜASİR QIRICI: HƏDİYYƏ, YOXSA...

Ermənistan 2020-ci ildə 4 SU-30SM alacaq, bir şərtlə ki...; Kreml başçısı Qərbpərəst erməni baş naziri özünə möhkəm bağlamaq üçün planlar qurur




yazısı səh.8-də

# Ölkədə donuz qripi var: bəs kimlər risk altındadır?

Baş epidemioloq A/H1N1 virusuna yoluxan 16 nəfərin tam sağlam vəziyyətdə olduğunu açıqladı; ÜST-in koordinatoru "hər deyilən sözə" inanmamağa çağırdı

yazısı səh.10-da



*Elxan Şahinoğlu:*

### "Paşinyan münaqişənin həlli istiqamətində addım atmasa..."

yazısı səh.9-da



### Əhməd Oruca qarşı "gizli imzayla Elçibəyin əleyhinə məqalələr yazıb" ittihamı

yazısı səh.12-də



*Oqtay Əsədov:*

### "Heç kimi parlamentə zorla seçməyiblər"

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019



## “Xəzər dənizi daha çox tullantı suları ilə çirklənir” - nazirlik

**Xəzər dənizi daha çox tullantı suları ilə çirklənməyə məruz qalır. Trend-in məlumatına görə, bu barədə bu gün keçirilən mətbuat konfransında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Mirsalam Qənbərov deyib.**

O qeyd edib ki, bəzi müəssisələr tullantı sularını təmizləmədən birbaşa Xəzər dənizinə atmaqda davam edirlər:

“Əslində tullantı suları təmizləyici qurğulara yönəldilməli və təmizləndikdən, zərərsizləşdirildikdən sonra dənizə axıdılmalıdır. Lakin bəzi müəssisələrdə müvafiq standartlara cavab verməyən, primitiv üsulla düzəldilmiş sistemlərdən istifadə edirlər və bunu təmizləyici qurğu adlandırırlar. Hazırda tullantı sularının təmizlənməsi üçün çox sadə və asan idarə olunan texnologiyalar, təmizləyici qurğular mövcuddur. Ölkəmizdə də bəzi müəssisələrdə bu texnologiyalardan istifadə olunur”.

Şöbə müdiri Xəzərin çirklənməsinin qarşısını almaq üçün müəssisələri tez bir zamanda tullantı sularının təmizlənməsi üçün çox sadə, müasir standartlara cavab verən, quraşdırılması və idarə olunması asan olan, eyni zamanda maliyyə cəhətdən sərfəli modul və stasionar qurğular quraşdırmağa çağırır:

“Mütəxəssislərimiz tərəfindən tullantı sularının idarə olunmasının icra prosesinə nəzarət ediləcək. Bu gün KİV vasitəsilə dənizi çirkləndirənlərə bir daha çağırış və tövsiyə edirik ki, tezliklə bu qurğulardan quraşdırsınlar. Sonra deməsinlər ki, eşitmədik, bilmədik. Hər bir fiziki və hüquqi şəxs problemin vacibliyini və aktuallığını başa düşməli, Nazirlik tərəfindən verilən xəbərdarlığın müddəti başa çatanadək tədbir görməlidir”.

## Bakıda 23 yaşlı gəlini vəhşicəsinə döyərək xəstəxanalıq etdilər

**Bakıda qadın əri tərəfindən vəhşicəsinə döyülüb. Trend-in məlumatına görə, hadisə Binəqədi rayonu, 2-ci məhəllədə qeydə alınıb. 1995-ci il təvəllüdlü Məmmədova Aysel gecə saatlarında əri tərəfindən döyülüb. Ağır xəsarətlər alan qadın yaxınları tərəfindən 1 saylı Klinik Xəstəxanaya çatdırılıb.**

Xəstəxanadan verilən məlumata görə, A.Məmmədova kəllə-beyin travması və bədəninin müxtəlif yerlərindən ağır xəsarətlər alıb.

Hazırda qadın palatadadır və müalicəsi davam etdirilir.


## Abunə daha sərfəlidir - “Yeni Müsavat” abunə kampaniyasını davam etdirir




“Yeni Müsavat” qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa “Qaya” Mətbuat Yayımı vasitəsilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


# Buxarestdə 4 ölkənin XİN başçılarının görüşü keçiriləcək


Mahmud Məmmədquliyev

**Azərbaycan, Gürcüstan, Türkmənistan və Rumıniya xarici işlər nazirlərinin görüşü martın 4-də Buxarestdə keçiriləcək.**

“Report” xəbər verir ki, bu barədə Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev Rumıniyanın Avropa İttifaqı Şurasındakı sədrliyinə həsr olunmuş tədbirdə bildirib.

Nazir müavininin sözlərinə görə, görüş “Xəzər dənizi - Qara dəniz” beynəlxalq nəqliyyat dəhlizi layihəsinə həsr olunacaq.

Qeyd edək ki, ötən ilin oktyabr ayında Aşqabadda “Xəzər dənizi - Qara dəniz” beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə dördtərəfli ekspert görüşü keçirilib.

## Rusiyadan qanunsuz yollarla böyük məbləğlərdə pullar Əli Kərimli üçün göndərilirmiş

**Fevralın 1-də Rüstəmov Saleh Məhərrəm oğlu, Rüstəmli Vidadi Valeh oğlu, Məhərrəmov Aqil Əli oğlu, Həsənov Babək Qəzənfər oğlu və Nəsirov Ruslan Şamil oğlunun Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilmiş növbəti baxış iclasında İslam Rəhimov, Natiq Kamalov və Vüsal Bayramov şahid qismində dindiriliblər.**



Trend-in məlumatına görə, məhkəmə iclasında Cəmil Həsənli, Arzu Səmədbəyli, eləcə də KİV-lərin nümayəndələri iştirak ediblər.

**Natiq Kamalov məhkəmədə ifadəsində göstərib ki, ticarət məqsədilə mütəmadi olaraq Rusiyaya gedib-gəlir, ayrı-ayrı şəxslərin Moskvadan Azərbaycana pul göndərilməsi məsələsini həll edir.** 2016-cı ilin sonlarında Moskvada olanda Saleh Rüstəmov ona Bakıya 4000 ABŞ dolları göndərməyi istədiyini, pulu Bakıda qardaşı oğlu Vidadi Rüstəmlinin götürəcəyini deyib. Pulu ondan götürdükdən sonra Vidadi Rüstəmlinin ələ vasitəsini qohumu Tural Mehdixanova göndərib. Vidadi Turalla Bakıda görüşərək 4000 ABŞ dollarını ondan götürüb. Bundan sonra dəfələrlə qeyd olunan qaydada Saleh Rüstəmov Moskvadan Bakıya bəzən 3000, bəzən isə 4000 ABŞ dolları göndərib. 2017-ci ilin ortalarında isə Saleh Rüstəmov onun vasitəsilə bir dəfəyə 175.000 ABŞ dolları pul göndərib, həmin pulu da Vidadi Rüstəmli Bakıda Turaldan götürüb.

**İslam Rəhimov ifadəsində göstərib ki, 10 may 2018-ci il tarixdə Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarının təklifi əsasında onlar tərəfindən keçirilmiş əməliyyat tədbirində hal şahidi qismində iştirak etməyə razılıq verib.** Həmin tarixdə polis əməkdaşlarının dəvəti ilə onlar Nərimanov rayonunda yerləşən “Əlibaba” çay evinin qarşısına gəliblər. Bir neçə dəqiqə sonra ora ağ rəngli “Kia” markalı avtomobil gələrək çay evinin qarşısında dayanıb. Polis əməkdaşları sükan arxasından düşən Vidadi Rüstəmliyə yaxınlaşıb xidməti vəsiqələrini təqdim etdikdən sonra narkotiklə bağlı şübhəli bilindiyi üçün saxlanıldığını bildiriblər. Vidadi Rüstəmli şalvarının cibində bir büküm heroini, sonra isə idarə etdiyi avtomobilin qoltuqaltından iki ədəd selofan bükümlərdə maddələri çıxarıb polislərə təqdim edib

**Vüsal Bayramov isə məhkəmədə dindirilərkən bildirib ki, AXCP-nin üzvü Aqil Məhərrəmovu dostu Yusif vasitəsilə tanıyıb.** Bir dəfə Aqil ona telefonla zəng edib, həmin gün işi olduğuna görə onun əvəzinə “Gənclik” metro stansiyasında bir nəfərlə görüşməyini və göndərilən pulu götürüb ona verməyini xahiş edib. O da işdən çıxdıqdan sonra Atatürk parkının yaxınlığında bir nəfər oğlanla görüşüb 500 ABŞ dolları məbləğində pulu qəbul edərək Aqilə verib.

Qeyd edək ki, təqsirləndirilən şəxs Aqil Məhərrəmov ilkin ifadələrində faktiki qanunsuz sahibkarlıq və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətməklə üzvü olduğu siyasi qurumun fəaliyyətini qeyri-qanuni maliyyələşdirdiyini etiraf etmişdir.

**Məhkəmənin növbəti iclası fevralın 5-nə təyin edilib.**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**





## Bakıdakı yol nişanlarına dəyişiklik edilib

**Bakıda qanunsuz parklanmaya intellektual nəzarət kameralarının olduğu mərkəzi küçələrdə yolların buraxıcılıq qabiliyyəti və nəqliyyat vasitələrinin intensivliyi təhlil edilir.**

“Report” xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyinin açıqlamasında bildirilir.

Məlumatda həmçinin deyilir ki, kameraların fəaliyyəti nəticəsində nəqliyyat sıxlığını artıran, yolların buraxıcılıq qabiliyyətinə mənfi təsir edən süni amillərin tədricən aradan qalxdığı müşahidə edilir. Parklanmanın daha səmərəli idarə edilməsi məqsədilə, nəqliyyat vasitələrinin intensivliyinin buraxıcılıq qabiliyyətindən daha az olduğu yollardakı müvafiq nişanlarda dəyişikliklər olunur.

Bu çərçivədə paytaxtın Azadlıq prospekti, Bülbül, S.Vurğun, D.Əliyeva, R.Behbudov və Ü.Hacıbəyov küçələrində ümumilikdə 33 nişan qanunvericiliyin tələbinə uyğun dəyişdirilib. 19 yerdə 3.27 nişanı 3.28 nişanı ilə əvəz edilib. 14 nişanda isə çatışmazlıq aradan qaldırılıb. Dəyişiklik edilən yol nişanlarına onların tələbinin qüvvədə olduğu vaxtla bağlı (07:30-20:00) məlumat lövhələri də (7.5.4 yol nişanı) qoyulub. Sürücülərin diqqətinə çatdırırıq ki, 3.27 və 3.28 nişanlarının tələbinin qüvvədə olmadığı müddətdə nəqliyyat vasitəsini yolun 2-ci, 3-cü cərgəsində saxladıqları halda onlara qarşı inzibati tənbeh tədbirləri görüləcək.

Bu cür tədbirlər digər küçələrdə də həyata keçiriləcək. Qanunsuz parklanmaya intellektual nəzarət kameralarının quraşdırılması nəzərdə tutulan yollar da müəyyən müddətdən sonra təhlil ediləcək. Nəqliyyat intensivliyinin artması və azalmasına uyğun olaraq yolun buraxıcılıq qabiliyyətinə əsasən yol nişanlarında dəyişikliklər edilə bilər.

**Qanunsuz parklanmaya intellektual nəzarət sisteminin kameralarının quraşdırılması işləri çərçivəsində ümumilikdə 360 məntəqədə kameraların quraşdırılması planlaşdırılır.**

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019

# "Hər bir gəncin əsas vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək olmalıdır"

## Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunan respublika toplantısında iştirak etdi












**Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib.**

"Azərtac" xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Dövlət başçısı tədbirdə nitq söyləyib.

Gənclər Günü münasibətilə təbriklərini çatdıran Prezident İlham Əliyev bu günün ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə təsis edildiyini xatırladıb, Ümummilli Liderin gənclərə həmişə böyük sevgi və qayğı ilə yanaşdığını bildirib. Dövlət başçısı Azərbaycanda müasir gənclər siyasətinin 1994-cü ildən başladığını, həmin il Ulu Öndərin o zaman mövcud olan çətinliklərə baxmayaraq, Gənclər və İdman Nazirliyini yaratdığını və bunun da gənclər üçün imkanlar açdığını vurğulayıb. Prezident İlham Əliyev ölkədə gənclərlə bağlı dövlət proqramlarının qəbul olunduğunu, bölgələrdə Gənclər mərkəzlərinin, Olimpiya İdman komplekslərinin açıldığını qeyd edib, ölkədə gənclərlə bağlı müxtəlif mötəbər beynəlxalq tədbirlərin keçirildiyini bildirib.

Müstəqillik dövründə yaşamağın gənclər üçün böyük xoşbəxtlik olduğunu vurğulayan dövlət başçısı ölkəmizin hərtərəfli inkişafında gənclərin roluna toxunub, onların cəmiyyətin fəal üzvləri olduğunu deyib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan gəncləri peşəkar olmalı, milli və vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. "Haqlı olaraq gənclərimizlə fəxr edə bilərik", - deyən dövlət başçısı şəhidlərimizin böyük əksəriyyətinin gənclər olduğunu vurğulayıb və qeyd edib ki, hər bir gəncin əsas vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək olmalıdır.

Prezident İlham Əliyev Azərbaycanın son illərdə qazandığı uğurlardan və sosial-iqtisadi inkişafdan danışıb, ölkəmizin beynəlxalq nüfuzunun artdığını vurğulayıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hüquqi, siyasi və digər cəhətlərdən mövqelərimizin möhkəmləndiyini qeyd edib.

Çıxışının sonunda Prezident İlham Əliyev Azərbaycan gənclərinə inandığını və güvəndiyini bəyan edərək onlara uğurlar arzulayıb.

Sonra gənclər siyasətinə həsr olunan film nümayiş olunub.

Daha sonra Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, Qarabağ qazisi Kamil Müsəvi, Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, "Human Foundation"un təsisçisi Fəridə Əsgərzadə, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Regionların İnkişafı İctimai Birliyinin nümayəndəsi Aydan Ramazanova, Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, tələbə gənclər təşkilatının sədri Ayxan Hüseynli, Azərbaycan Dövlət İdman və Bədən Tərbiyəsi Akademiyasının tələbəsi Ülkər Əsədova, şəhid polkovnik-leytenant Raqif Orucovun oğlu Aqşin Oruclu, "ASAN" könüllüsü Emilya Bayramova çıxış ediblər.

Sonra bir qrup gəncin təltif olunması mərasimi keçirilib.

**Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə yekunlaşıb.**

❑ **Musavat.com**



## Prezident Ukraynada qəhrəman olan Şirinov qardaşları ilə görüşdü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynada alovlanan avtomobildən 3 insanı çıxararaq xilas edən azərbaycanlı qardaşlar - Sabir Şirinov və Umud Şirinovla görüşüb.**

Prezident həyatları təhlükəyə məruz qalmış insanların xilası zamanı göstərdikləri şəxsi şücaətə görə Sabir Adil oğlu Şirinov və Umud Adil oğlu Şirinovu "İgidliyə görə" medalı ilə təltif edib.

Xatırladaq ki, Ukraynanın Nikolayev şəhərində yaşayan Umud və Sabir Şirinov qardaşları həyatlarını təhlükəyə ataraq alovlanan avtomobilin içindən azyaşlını, qadını və bir kişini çıxarıblar.

❑ **Musavat.com**

# Bu gün Gənclər günüdür - prezident sərəncam imzaladı




**Fevralın 2-ci Azərbaycanda Gənclər Günüdür. Bu günün Gənclər günü elan olunması 1997-ci ildə mərhum prezident Heydər Əliyevin sərəncamı ilə təsdiq olunub. Dünyada isə yalnız 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda keçirilən Konfransda BMT-nin qərarı ilə avqustun 12-si Gənclər Günü elan edilib.**

Builki Gənclər Günü ilə bağlı prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncamla gənclər siyasəti sahəsində fəallığı ilə fərqlənən bir neçə gənc təltif edilib. Musavat.com AZƏRTAC-a istinadən xəbər verir ki, dövlət gənclər siyasətinin həyata keçirilməsində, gənclər hərəkatının formalaşmasında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif ediliblər:

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə - **Cabbarov Azad Vaqif oğlu**;

"Tərəqqi" medalı ilə - **Əsgərli Asif Məmməd oğlu**, **Qədirov Vüqar Kərim oğlu**, **Orucov İlqar Nəcibəddin oğlu**;

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə - **İskəndərov Vüqar Yapon oğlu**, **Quliyev Rüfət Mətləb oğlu**, **Nəcəfli Kamal Məmməd oğlu**.

Dövlət başçısının digər sərəncamı ilə mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən bir qrup şəxsə 2019-cu il gənclər üçün prezident mükafatları verilib.

Azərbaycanda son zamanlar isə gəncliyə ayrılan diqqət daha da artıb. Təkcə o faktı deyək ki, ötən il bir neçə gənc nazir postuna və ya nazir müavinliyinə qədər irəli çəkilib.

## Elşən Musayev: "Yüksək vəzifələrdə təmsil olunmaq üçün insanlar çox püxtələşməlidir..."

**Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev** "Yeni Müsavat"a açıqlamasında Azərbaycanda gənclərə verilən yüksək dəyərdən söz açdı: "2 Fevral tarixinin mahiyyəti özünü ilk öncə onda ehtiva edir ki, gənclərin də öz günü var. Bu son dərəcə əlamətdar haldır və nəzərinizə çatdırım ki, hətta inkişaf etmiş Avropa, Qərb ölkələrinin bir çoxunun təqvimində belə gənclərlə bağlı xüsusi günə rast gəlinmir. Yeni azərbaycanlı gənclərin bu baximdan bəxti gətirib. İkinci demək istədiyim isə odur ki, tarix boyu öndə olan, ictimai- siyasi proseslərin ən qaynar nöqtələrində, ən kuliminasion xətlərdə, mövqelərdə qərarlaşan gəncliyimiz həm də həmin xüsusi günü haqq edir. Bu da ayrı bir həqiqətdir. Müasir həyatda, idarəetmədə gənclik ən yüksək etimad göstərilən təbəqələrdən biridir. Xatırlatmaq istəyirəm: zaman vardı, bəzi insanlar gəncliyə qarşı münasibətdə çaşqın, qərarsız idilər. Bu səbəbdən gənclərə yönəlik fikirlər də birmənalı deyildi. Təbliğ etdikləri əsas ana ideya xətti də bu idi ki, yüksək vəzifələrdə təmsil olunmaq üçün insanlar çox püxtələşməli, formalaşmalı, ən azından 40 yaşına çatmalıdır və s. Amma ulu öndər Heydər Əliyev bu stereotipi qırdı və haqqında danışdığım fəlsəfə yiyələrinə öz qərar və sərəncamları ilə mesaj verdi ki, yanlış düşünürsünüz, gəncliyə güvənmək lazımdır, insan yaşı ilə deyil, ağlı ilə böyüyür, formalaşır. Elə bu minvalla da 24 yaşlı nazir müavinləri, 35 yaşlı nazirlər təyin olundu. Düzdür, kim etimadı nə qədər doğrultdu, verilən tapşırıqları necə icra etdi - orasını deyə bilmərəm, amma fakt budur ki, Heydər Əliyev son dərəcə gözəl bir təşəbbüsün, ənənənin təməlini qoydu. İndi də bu yol prioritetdir - təbii ki, cənab prezidentin yürütdüyü siyasətin timsalında. Elə təkcə Nazirlər Kabinetinin son tərkibinə baxsaq görərik ki, Azərbaycan gəncliyinin ziyalı, oxumuş, təhsilli kəsiminə etimad hansı səviyyədədir və deyim ki, etimad göstərilən həmin şəxslər üzərlərinə düşən vəzifələri də ən yüksək səviyyədə yerinə yetirirlər, bir çoxlarına da örnək olacaq fəaliyyətləri var. Mənim gənclik adına üzüldüyüm tək kəsim radikal müxalifətin girdabına düşüb o girdabdan hələ də çıxa bilməyənlərdir. Ürək ağrısı ilə üzülürəm ki, Əli Kərimli tipində qaragüruh "liderlər" günahsız insanları kitabsız, təhsilsiz qoyub onları saxta ümidlərlə, ideyalarla öz oyunlarına alət edirlər, cinayətlərə sövq etdirirlər, axırda da yalnız qoyurlar. Həmin gənclərə üzümü tutub deyirəm: lütfən realist olun, nağıllar aləmindən uzaqlaşın, düz yolu seçin, Əli Kərimli kimi qolçomaq təfəkkür sahiblərinin deyil, millətin, dövlətin, əsl perspektivin, real inkişafın yanında olun".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019

# Azərbaycan mətbuatında ciddi islahat gedir - qəzetlərin sayı azalacaq...

## KİVDF müsabiqə şərtlərini dəyişdi, tələblər artırıldı, yeni qaydalara uyğunlaşa bilməyənlər yarıyolda qala bilər...

**Xəbər verdiyimiz kimi, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu(KİVDF) 2019-cu ilin II rübü üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elan edib. Müsabiqə şərtlərində müəyyən dəyişikliklərin aparılması isə mediada ajiotaja səbəb olub. Belə ki, müsabiqədə son 3 ildə müntəzəm gündəlik nəşr olunan, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 5000 nüsxədən az olmayan, hər buraxılışından ən azı 2000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan ictimai-siyasi qəzetlər, xarici dillərdə nəşr olunan gündəlik və həftəlik, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 3000-dən az olmayan, hər buraxılışından ən azı 1500 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan ictimai-siyasi qəzetlər iştirak edə bilər.**



**Vüqar Səfərli:** "Biz gələcəkdə bu prosesdən kənarda qalan və onlayn rejimdə fəaliyyətə başlayan media orqanlarını da nəzərə alacağıq"

Hazırda bir çox mətbuat orqanı bu tələblərə cavab vermədiyindən onların maliyyəsinin dayandırılacağı və dolayısı ilə fəaliyyətinin də dayanması mətbuatda müzakirə edilir.

Onların sırasında "Şərq", "Ədalət", "Unikal", "Palitra", "Paralel", "Azad Azərbaycan", "Həftə içi", "Bizim Yol", "Olaylar", "Üç Nöqtə", "Oxu Məni", "Hürriyyət", "Reytinq", "Hərbi And", "Türküstan", "İqtisadiyyat" və "Mövqe" qəzetlərinin adı çəkilir.

Maliyyələşdirilməsi davam etdiriləcək qəzetlər siyahısında isə "Səs", "Yeni Azərbaycan", "Yeni Müsavat", "İki Sahil", "Kaspiy", "525-ci qəzet", "Bakı Xəbər" və "Novoye Vremya"nın adları çəkilir.

Qeyd edək ki, daha öncə "Ekpress", "Bizim yol" , "Reytinq", "Unikal" qəzetlərinin fəaliyyətini dayandırması, çap mediasının sıradan çıxması və ölkənin qəzetsiz qalacağı ilə bağlı iddiaları daha da gücləndirdi.

Mediada yaranmış bu ajiotaja **Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli** musavat.com-a açıqlamasında münasibət bildirib.

**İcraçı direktor qeyd edib ki, KİVDF heç bir qəzetin maliyyəsini dayandırmayıb:** "Ötən il biz 6 aylıq layihə ilə 33 qəzeti maliyyələşdirirdik. Oktyabr ayında "Təhsil problemləri" qəzeti çapını dayandırdı. Halbuki biz onlara maliyyə ayırmışdıq. Bunun günahı bizdədirmi? "Ekspress" qəzetinə 30 min manat pul ayırmışdıq, yanvarın 1-dən çapı dayandırdılar. Bu maliyyənin dayandırılması demək deyil axı. Kimsə çapını dayandırırsa, bunun bizə aidiyyatı yoxdur. Biz sadəcə dünən bu ilin II rübü üçün yeni müsabiqə şərtlərini elan etmişik. Orada tirajları və yayımı qaldırmışıq. Bu isə bizdə həmişə zaman-zaman olub. Biz 10 ildir bu qəzetlərə vəsait ayırırıq. Bu müddətdə bir inkişaf olmalıdır, yoxsa yox".

**V.Səfərlinin sözlərinə görə, söhbət adı çəkilən qəzetlərə maliyyənin dayandırılmasından yox, müsabiqə şərtlərinin dəyişməsindən gedir:** "Qəzetlər ayrılan maliyyənin əksər hissəsinin nəşriyyat xərclərinə sərf edirlər. Qəzeti saxlamaq üçün isə əlavə gəlirləri yoxdur. Buna görə də, çap versiyanı dayandırıb onlayn rejimə keçirlər. Biz gələcəkdə bu prosesdən kənarda qalan və onlayn rejimdə fəaliyyətə başlayan media orqanlarını da nəzərə alacağıq. Onlara da yardım göstəriləcək və bunun qaydaları müəyyənləşdiriləcək. Maliyyənin dayandırılması ilə bağlı ajiotaj yaratmaq lazım deyil. Hansı maliyyə dayandırılıb? Biz aprel ayının 1-ə qədər müsabiqə elan etmişik ki, növbəti rübdə hansı qəzetə nə qədər vəsait veriləcək. İlin birinci rübü üçünsə bu qəzetlərlə müqaviləmiz var, yanvar ayının maliyyəsini bu günlərdə ödəyəcəyik, daha iki ay da fəaliyyət göstərəcəklər və layihə çərçivəsində maliyyə alacaqlar. Kimsə qəzet versiyanı bağlayıb, onlayn rejimə keçirsə, bunu onlara biz deməmişik ki... Biz heç bir qəzetin maliyyəsini dayandırmamışıq. Maliyyələşmə qaydalarını dəyişməklə, maliyyə verilməsini dayandırmaq tamamilə fərqli anlayışlardır".

**Çap mediasının getdikcə sıradan çıxması iddialarına gəlincə, V.Səfərli bildirdi ki, bu onların istəyindən asılı deyil, bütün dünyada gedən bir prosesdir:** "Bu məsələləri zaman həll edir. Bir qəzetin 5 min tirajı, 2 min yayımı yoxdursa, o qəzet kimə lazımdır? Bəzi qəzetlər əvvəlki şərtlərimizi birtəhər düzəldib gətirirdilər. Çox vacibdirmi makluaturaya bu qədər pul sərf edilsin? Ayırdığımız maliyyəni makluaturaya çevirib ziyan edirlər... O səbəbdən getdikcə çap mediasının sayı azalacaq. Artıq özləri qəzetlərinin fəaliyyətini dayandırırlar, çünki bu zamanın tələbidir. İndi internet əsridir, bütün dünyada bu proses gedir. Hər kəsin əlində telefon, planşet var və informasiyanı oradan alır. Bir çox qəzetin fəaliyyətinə ehtiyac qalmır. Qəzetlərin sayı azalacaq, ancaq o demək deyil ki, çap mediası sıradan çıxacaq. Dövlət müəyyən qəzetlərə maliyyə dəstəyi verəcək ki, onlar yaşasınlar və çap mediası da qalsın. Biz elan vermişik, qaydalar müəyyən etmişik. Buna uyğun kim sənədlərini təqdim edəcəksə, onlara maliyyə yardımı ayrılacaq".

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid** "Yeni Müsavat"a danışarkən qeyd etdi ki, son vaxtlar obyektiv səbəblərdən qəzet satışı azalıb: "Ola bilsin ki, qəzetlər bir-birini çox təkrar edirlər. Ona görə də, Fondun Müşahidə Şurası belə bir qərara gəlib. Qəzetlərin hazırda iqtisadi durumları çətindir. Ona görə də, Fondun dəstəyi olmadan bu qəzetlərin hamısının fəaliyyətini davam etdirməsi çətin olacaq. Biz ümid edirik ki, hələlik kağız qəzet fəaliyyətini davam edə biləcək. Zaman və şərait isə ona aparır ki, gələcəkdə elektron media daha üstünlük qazanacaq. Biz də "525-ci qəzet" olaraq bu müsabiqə şərtlərinə uyğunlaşmağa və tirajımızı artırmağa çalışacağıq".

**"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə** isə qəzetimizə açıqlamasında vurğuladı ki, çap mediasının tamamilə sıradan çıxması gözlənilmir: "Çap mediası hər zaman olub, bu gün də var və gələcəkdə də olacaq. Bu tarix üçün, dövlət və cəmiyyət üçün çox gərəklidir. Mən hesab edirəm ki, Fond tərəfindən qoyulan şərtlər qəzetlərin keyfiyyətini daha da artıracaq. KİVDF-nin açıqladığı yeni müsabiqə şərtləri ilə bağlı qərar çox müsbət bir qərardır və qəzetlərin fəaliyyətində dönüş yarada bilər".

V.Rəhimzadənin fikrincə, qəzet olaraq rəqabətə cavab verməyən mətbuat orqanlarının onlayn media kimi fəaliyyətinə davam etməsi müsbət haldır. O, deyib ki, Fondun bu şərtlərindən əvvəl bəzi qəzetlərin çap variantını dayandırıb, elektron versiyaya keçməsi ilə bağlı fikirlər səslənirdi və hətta belə faktlar da olmuşdu.

**"Ədalət" qəzetinin baş redaktoru Aqil Abbas** da vurğuladı ki, bu proses qəzetlərin bağlanması demək deyil: "Fond tərəfindən yeni şərtlər qoyulub, mən o şərtləri yerinə yetirə biləcək bir adamam. 29 ildir ki, "Şərq" qəzeti fasiləsiz çıxır. Yəqin ki, hələ 1 il də çıxacaq. "Ədalət" qəzetinin hazırda 1700 abunəçisi var. Bəzi qəzetlərin tirajı aşağıdır və oxucusu yoxdur və ya çox azdır. Bu qəzet niyə çap olunmalıdır ki? Həmin qəzetlər maliyyə yardımı almaq istəyirlərsə, qəzetin fəaliyyətini gücləndirsinlər, oxucusunu artırsınlar və maliyyə alsınlar. Qəzetlərin çap versiyanı dayandırıb onlayn varianta keçməsi isə onun fəaliyyətinin dayanması demək deyil".

**Çap mediasının tədricən sıradan çıxması iddialarına gəlincə, A.Abbas bildirdi ki, kağız qəzetlər hər zaman olacaq, heç vaxt tamamilə sıradan çıxmayacaq:** "Çünki internet daha etibarsızdır, bəzi saytlar bağlanır və onların arxivi tamamilə internetdən silinir. Bütün materialları bir anda məhv olur, illərin əməyi yoxa çıxır. Qəzet isə əlyazmadır, yüz il bundan öncəki qəzetin də nüsxələri bu gün arxivlərdə var. Qəzet tarixdir, sənəddir. Bundan başqa qəzet təkcə məlumat ötürmür, qəzetdə gedən materiallar araşdırmadır, analitik şərhlərdir. Yəni qəzet başqa bir şeydir, onu heç nə əvəz edə bilməz. İnternet qlobal bir məkandır və onun açarı bizim əlimizdə deyil, Amerikanın əlindədir. Düyməni basdı və bütün saytların fəaliyyəti dayandı, bütün arxiv də itib getdi. Ancaq 20 il öncəki "Yeni Müsavat" qəzetini bu gün də arxivdən əldə etmək olar. Qəzetin fərqi və üstünlüyü budur".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

# Hakimiyyət Rəsulzadənin abidəsini ziyarət etsə...

## Tural Abbaslı: "İqtidar bu sahədəki boşluqları analiz etməli və qüsurlu nüansları aradan qaldırmalıdır"

**Yanvarın 31-də Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin 135 yaşı tamam oldu. Gözlənilənlərin əksinə olaraq, bu yubiley dövlət səviyyəsində xüsusi tədbirlərlə keçirilmədi. Məhəmməd Əmin Rəsulzadənin doğum günü tədbirlərini demək olar ki, müxalifət düşərgəsinə aid təşkilatlar keçirdilər. Ənənəvi olaraq böyük öndərin dünyaya göz açdığı Novxanı kəndindəki abidəsinin önündə kütləvi tədbirlər təşkil olundu. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusunun yalnız müxalifətə aid böyük dəyər olmadığı isə məlumdur. Sadəcə olaraq yuxarıda qeyd etdiyimiz mənzərə belə mənzərə yaradıb ki, sanki Rəsulzadə müxalifətin inhisarındadır.**



Bu mənzərənin dəyişməsi isə mümkündür. Qeyd edək ki, son 10 ildə Azərbaycan iqtidarı müxalifət düşərgəsinin əlində olan bir sıra ideoloji "silahları" müxtəlif addımlarla alıb. Belə mənzərə yaranıb ki, yeganə ən güclü ideoloji faktor Məhəmməd Əmin Rəsulzadə məsələsi qalıb. Bəs iqtidar düşərgəsi nədən bu tarixlərdə M.Ə.Rəsulzadəni anmır, onun heykəlinin ziyarət etmir? Əslində etməlidirmi? Ətsə və Rəsulzadəyə sahiblənsə, onun adını öz monopoliyasında saxlamağa çalışanları tamamilə "tərksilah" etmiş olarmı?

**AĞ Partiyanın sədri Tural Abbaslı** bildirdi ki, 1993-cü ildə AXC hakimiyyəti iş başından getdikdən və YAP hakimiyyətə gəldikdən sonra keçmiş hakimiyyətlə bu və ya digər formada assosiasiya olunan bütün dəyərlərdən və simvollardan imtina edildi: "Ancaq bu simvollar və dəyərlər yalnız bir hakimiyyətin simvolu olacaq qədər kiçik dəyərlər deyil. Bu simvollar və ideoloji dəyərlər bütün Azərbaycan xalqının səmimi və könüllü şəkildə qəbul etdiyi hətta sahibləndiyi dəyərlərdir. Bu dəyərlərə sahib olmaq daha güclü olmaq deməkdir. Adətən bütün dünyada, əsasən də inkişaf etmiş ölkələrdə belə simvollar və dəyərlər qətiyyən siyasi rəqabət predmeti etmirlər. Yəni bunlar adətən ümummilli və ümumxalq simvollarıdır. Adətən bu səviyyədəki simvollarla mübarizə aparan siyasi qüvvələr uğur əldə edə bilmirlər. Tam əksinə rəqiblərinin əlinə özlərinə qarşı ciddi və təhlükəli mübarizə vasitəsi vermiş olurlar. Uzun illər bu dəyərlərlə mübarizə aparıldı və bunu aparanlar özlərini xalqın nəzərində heç də daha da yüksəltmiş olmadılar. Sonradan iqtidar bu xəttin onlar üçün heç də tam uğur gətirmədiyini anladı və bu sahədə bəzi yumşaqlıqlar etməyə başlandı. Bu gün siyasi səhnədə eyni adla siyasi partiya varsa, tarixi Müsavat Partiyası və onun lideri Məhəmməd Əmin Rəsulzadədən imtina etmək təbii ki, məntiqi deyildi. Və yaxud bu gün kimsə AXC adından istifadə edərək siyasət qurursa bu da AXC hərəkatının Azərbaycan müstəqilliyində və tarixində oynadığı rolu inkar etmək olmaz. Digər tərəfdən hesab edirəm ki, Heydər Əliyev simvolunu Məhəmməd Əmin Rəsulzadə və ya Əbülfəz Elçibəylə qarşı-qarşıya qoymaq doğru deyil. Əslində İlham Əliyevin eks-prezidentlər barədə qərar qəbul etməsi və bu sırada Ayaz Mütəllibovla, Əbülfəz Elçibəyi tanıması doğru addım idi. Həmçinin his keçən ili cümhuriyyət ili elan etməsi də doğru addım idi. Lakin burada düşünürəm ki, qərar verilsə də Məhəmməd Əmin Rəsulzadə il ərzində keçirilən tədbirlərdə böyüklüyünə layiq qiymətləndirilməliydi. Hakimiyyətlər gələr və gedər, ancaq, tarix və həqiqətlər dəyişməz. Tarixi olduğu kimi qəbul etmək həmçinin dövlətçiliyə xidmət edir. Düşünürəm ki, hakimiyyət bu sahədəki boşluqları analiz etməli və qüsurlu nüansları aradan qaldırmalıdır".

Partiya sədri qeyd etdi ki, Məhəmməd Əmin Rəsulzadənin doğum və vəfatının ildönümləri dövlət səviyyəsində qeyd olunsa, abidəsi ziyarət olunsa, bu addımlar hakimiyyətdə cəmiyyətdə müsbət münasibət yaradar: "Məhəmməd Əmin Rəsulzadə bir-iki partiyaya məxsus dəyər, simvol deyil, Azərbaycan xalqına, dövlətinə məxsusdur. İqtidarın da buna əsaslanıb ona sahiblənməsindən ilk növbədə iqtidar özü qazanar. Ən azından Azərbaycanın tarixi dəyərləri, simvolları sahəsində iqtidar-müxalifət ayrımı olmamalıdır. Siyasi rəqabət üçün kifayət qədər münbit sahələr var, siyasi rəqabəti o sahələrə çəkmək lazımdır. Ümummilli dəyərlər, simvollar və dəyərlər toxunulmaz olmalıdır. Qırmızı xətlər aydın cizilmalıdır ki, dövlətçilik lazımi səviyyədə oturuşa bilsin. Bu məsələdə də məsuliyyət hər zamankı kimi yenə də iqtidarın üzərinə düşür. Güman edirəm ki, hakimiyyət bu reallıqları görə biləcək fərasətdə olacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019

**Fevralın 1-də Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirildi. Spiker Oqtay Əsədov deputatları və media mənsublarını salamladıqdan sonra Dövlət Himni oxundu.**



# "Heç kimi parlamentə zorla seçməyiblər"

## Yaz sessiyasının ilk plenar iclasında spiker deputatlara sərt xəbərdarlıq etdi; MM üzvləri əhalini narahat edən problemlər barədə məsələ qaldırdılar

İlk olaraq İntizam komissiyasının yeni, 11 nəfərlik tərkibi səsə qoyuldu və qəbul edildi. Həmçinin deputatlar Hesablayıcı komissiyasının yenidən təşkil olunmasına, komitə sədrlərinin yeni müavinlərinə səs verdilər.

Bundan sonra 2019-cu il yaz sessiyasının qanunvericilik işlər planı, ardınca Gürcüstanda qatil Mixail Avaqyana abidə ucaldılması məsələsi müzakirə olundu.

**Deputat, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov** Mətbuat Şurası və onlayn media ilə bağlı iki yeni qanun layihəsinin hazırlanmasını və qəbulunu təklif etdi. Ardınca Gürcüstandan Azərbaycana vurulan xain zərbəyə də münasibət bildirdi: "İstəyirlər ki, gürcü və Azərbaycan xalqları arasındakı bu dostluq pozulsun. Məlum abidənin ucaldılması bunun bariz nümunəsidir. Özü də elə bir vaxt seçiblər ki - 20 yanvar. Bu, heç də təsadüfi deyil. Deməli, hər şey planlı şəkildə həyata keçirilib".

**Deputat Fazil Mustafa** Gürcüstana etiraz bildirməklə yanaşı, cəmiyyətin, dövlətin alternativ təqdim etməsini zəruri saydı. O, ermənilərin atdığı addımların qarşılığında hələ Çar hökumətinin zamanında erməni terroruna qarşı mübarizə üçün gizli fəaliyyət göstərən "Difai" təşkilatını yaradan böyük ziyalımız Əhməd bəy Ağaoğluna Gürcüstanda heykəl ucaldılmasını təklif etdi.

**Spiker O.Əsədov** Gürcüstan hökuməti ilə müvafiq işlərin aparıldığını dedi. Ardınca isə barəsində kifayət qədər araşdırmaların aparılmayan Əhməd bəy Ağaoğlu barədə məsələyə toxundu: "Elə özün çox yaxşı tədqiqat etmisən, bunu axıra çatdır, onu göndərək müvafiq yerlərə".

**Deputat Vahid Əhmədov** dedi ki, əmanətlərin tam sığortalanması haqqında 3 il müddətinə qəbul olunan qanunun müddəti bu ilin martında başa çatacaq: "Artıq əhalinin müəyyən hissəsi əmanətlərini geri çəkməyə başlayıblar. 3 il ərzində qoyulan əmanətlərin həcmi bank əmanətlərinin 40 faizini təşkil edir. Əgər əmanətlərin tam sığortalanması barədə yeni qanun qəbul olunmasa, bank sistemində çox ciddi problemlərlə üzləşə bilərik. Bu barədə dəfələrlə təklif versək də, heç bir nəticə olmayıb. Ona görə də mən Azərbaycan hökumətindən xahiş edirəm, bu məsələyə təcili baxsınlar. Ya bu qanunun müddətini 1, ya 3 illik uzatsınlar, ya da biz yeni qanun qəbul edək".

**V.Əhmədov da Gürcüstanda erməni caniyə heykəl qoyulmasına da etiraz etdi:** "Gürcüstan dövləti başa düşməlidir ki, Azərbaycandan çox böyük dividentlər əldə edib və belə hərəkətlərə yol verməməlidir".

**Deputat Əli Məsimli** isə problemli kreditlərə diqqət çəkdi: "Başqa ölkələrdə problemli kreditlərin faizi 3-5 faizə çatanda hökumət hərəkətə keçir. Amma bizdə problemli kreditlərin həcmi ümumi kredit portfelinin 14 faizinə yaxınlaşır. Yəni problemli kreditlərin həcmi kritik həddən bir neçə dəfə artıqdır. Bəziləri hesab edir ki, bu problemi hökumət yaradıbsa, hökumət həll etməlidir. Amma biz dövlətin, bankların, Mərkəzi Bankın və əhalinin bölüşdürülməsi variantını təklif edirik. Bu, ədalətli olar və əhalinin vəziyyətin yaxşılaşmasına çox böyük təkan olar".

"Hesab edirəm ki, "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu və ya mövcud qanuna dəyişiklilər etmək lazımdır". Bunu MM-in İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov parlamentin bu gün keçirilən iclasında söylədi. S.Novruzov bildirdi ki, bütün dünyada olduğu kimi Azərbaycanda da siyasi partiyaların maliyyə mənbəyi ilə bağlı qərar qəbul olunmalıdır: "Bir qrup partiyalar var ki, MSK-ya hesabat vermir bu prosesdən yayınırlar. Onlar bununla maliyyə dövriyyəsinin olmadığını bildirirlər. Lakin əksəriyyəti yanlarında cangüdən, köməkçi gəzdirirlər. Bu azmış kimi qara pullar hesabına Azərbaycanda mitinq, yürüş, qarşıdurma yaratmağa cəhd edirlər. Maliyyə mənbəyinin qarşısı bağlanmasa, onlar əməllərindən əl çəkməyəcəklər. Çünki pul verənlər tapşırıqlarını həmin şəxslər vasitəsilə həyata keçirirlər. Onlar şirəyə yığışırlar".

**Deputat Sahib Alıyev** isə onlayn mediadan bəhs etdi. Dedi ki, sosial şəbəkələr haqqında ayrıca bir qanun qəbul edilməli, yaxud KİV haqqında qanuna yenidən baxılmalıdır. Dedi ki, sosial şəbəkələrdə meydan sulayan bir sıra şəxslər terrorçulardan daha təhlükəlidir.

**Spiker O.Əsədov** da sosial şəbəkələr vasitəsilə təhqirlər yayanlardan danışdı. Bu kimi qanunsuz hərəkətlərin qarşısını almaq yolları üzərində fikirləşməyi zəruri saydı: "Sosial şəbəkələrdə təhqirlərin aradan qaldırılması üçün tədbirlər görmək lazımdır". Sədr bildirdi ki, insan sosial şəbəkələri oxuyanda xəcalət çəkir: "Milli Məclisin, dövlət rəhbərliyinin adına ağızlarına gələni yazırlar. Təhqirə yol verənlərin qarşısının alınmasını fikirləşməliyik. İnsanlar bilməlidir ki, mentalitet təhqirə yol vermir. Artıq hər şey şeydən keçiblər".

**Deputat Flora Qasımova** Qarabağdakı erməni talanlarının qarşısını almaq üçün gecikmiş də olsa, işğal olunmuş ərazilərlə bağlı qanunun qəbulunu təklif etdi. Daha sonra xanım deputat ağdərəlilərin Dağlıq Qarabağın azərbaycanlı icmasından kənarda qaldığını və odur ki, 90-cı illərin əvvələrində ləğv edilən Ağdərə rayonunun yenidən yaradılmasını xahiş etdi.

F.Qasımova Dağlıq Qarabağın Azərbaycanlı İcmasının yenidən formalaşmasını təqdir edərək quruma parlament səviyyəsində dəstək verilməsini zəruri saydı.

**Deputat Azay Quliyev** ATƏT-in son vaxtlar Azərbaycana münasibətdə ədalətli mövqe tutduğunu dedi və qurumun rəhbərliyinə təşəkkür etdi.

**Deputat Qənirə Paşayeva** da Gürcüstanda erməni caniyə abidə qoyulmasına etirazını bildirdi.

**Deputat Elmira Axundova** dəm qazı səbəbindən baş verən faciələrə diqqət çəkdi. E.Axundova bədbəxt hadisələrinin qarşısını almaq üçün konkret təkliflə çıxış etdi: "Təklif edirəm ki, hər bir evdə avtomatik işə düşən təhlükəsizlik sistemi quraşdırılsın, tikilən evlərdə sayğacla yanaşı, təhlükəsizlik sistemləri də yerləşdirilsin. Nəhayət, müvafiq qurumlar bütün evlərdə kütləvi yoxlamalara başlasınlar, evlərdə tüstü-bacalar təmizlənibmi, yaxud təhlükəsizlik qaydalarına əməl olunubmu? Başa düşürəm, "Azəriqaz" işçiləri vətəndaşlarla humanist davranırlar, onlara problemlərin aradan qaldırılmasını təklif edirlər ki, gələn dəfə problem həllini tapsın. Amma gələn dəfə çox gec olur və vətəndaşlar növbəti bədbəxt hadisələrin qurbanı olurlar".

**Deputat Zahid Oruc** Şəhidlər Xiyabanını ziyarət zamanı baş verən insidentdən bəhs etdi. Bildirdi ki, Şəhidlər Xiyabanı millətin qürur, and və sükut yeridir: "Həmin məkanı heç bir halda aksiya məkanına çevirmək olmaz. Kimlərsə də bu müqəddəs məkanı aksiya yerinə çevirmək istəyirlərsə, çox böyük səhv edirlər. Onlara da ən böyük cəzanı şəhidlərin ruhu verəcək".

**Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli** müxalifəti ittiham etdi: "Radikal müxalifətin mitinq keçirmək məqsədi nə Məhəmməd Əmin Rəsulzadəni, nə də 20 Yanvar şəhidlərini anmaqdır. Onların məqsədi iğtişaş yaratmaq, ictimai-siyasi sabitliyi pozmaqdır".

**Deputat İqbal Məmmədov** söyüş kampaniyasına kəskin etirazını bildirdi.

"İnzibati icraat haqqında" qanunda qanuna dəyişiklik məsələsi isə mübahisələrə səbəb oldu. Deputat Çingiz Qənizadə qanuna təklif olunan dəyişikliyə etiraz edərək, mübahisələrin həllinin Prezident Administrasiya tərəfindən baxılmasını məqsədəuyğun hesab etmədiyini bildirdi: "Qanuna dəyişiklik ciddi problemlərə yol açacaq. Bu isə vaxt itkisinə səbəb olacaq. Rayonda yaşayan insan məcbur olub probleminin həlli üçün Bakıya gəlməli olacaq. Siz təsəvvür edin, bir qərar torpaq üzərində mülkiyyətin mübahisəli məsələnin üçün veriləcək, digər bir qərarda onun üzərində tikilən mülkiyyət üçün. Bu ciddi problemlərə yol açacaq. Onsuz da cənab prezidentin, Prezident Administrasiyasının kifayət qədər işləri var. Belə olan təqdirdə Prezident Administrasiyasını bu qədər yükləməyin nə mənası var?"

**Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli** isə həmkarının fikirlərinə reaksiya verərək bildirdi ki, bu təklif Administrasiya tərəfindən gəlib: "Onsuz da məsələ ilə bağlı indiyədək Prezident Administrasiyasına çoxsaylı ərizə və şikayətlər daxili olurdu. Qanuna dəyişikliklə bağlı təklif də onlar tərəfindən daxil olub və biz də baxırıq".

**Deputat Qüdrət Həsənquliyev** isə söz alaraq bildirdi ki, məsələ ilə bağlı fərqli yanaşması var: "Burada qeyd olunur ki, inzibati orqanlar arasındakı aidiyyət və səlahiyyətlərlə bağlı mübahisələrin həlli qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll olunur. Əgər qeyd olunsaydı ki, inzibati orqanlar arasındakı aidiyyət və səlahiyyətlə bağlı məsələlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll olunur. O zaman bu, Çingiz müəllimin narahatlığına əsas verərdi. Amma həlli qaydalarının müəyyən olunması ayrı, mübahisələrin həlli də ayrı şeydir. Ona görə də düşünürəm ki, əlbəttə, inzibati orqanlar arasında, aidiyyətlə, səlahiyyətlə bağlı mübahisə yaranırsa bunu daha yuxarı orqan həll etməldiir. Yəni burada mən narahatlıq üçün ciddi bir əsas görmürəm".

**Müzakirələrdən sonra dəyişikliklər qəbul edildi.**

"Avtomobil nəqliyyatı haqqında" qanuna dəyişikliklərin edilməsi müzakirə olunub və qəbul edilib. Bununla da Azərbaycanda verilən sürücülük vəsiqələrinin xaricdə tanınmasına mane olan amil aradan qaldırıldı. Belə ki, sürücülük vəsiqəsindəki məlumatlar ingilis dilində təkrarlanacaq. Hazırda qüvvədə olan sürücülük vəsiqələrində latın əlifbasında olmayan hərflərin - "ə", "ğ", "ö", "ü" işlənməsi vəsiqələrin xaricdə tanınmasına mane olur. Qarşıdakı müddətdə sürücülük vəsiqələri verilərkən bu məsələ həllini tapacaq, hazırda istifadə edilən vəsiqələrin isə dəyişdirilməsi tələbi yoxdur.

**Deputat Fəzail Ağamalı** Milli Məclisin plenar iclasında söz alaraq paytaxt Bakıda tikinti işlərinə qoyulan qadağaya diqqət çəkdi. Dedi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə yeni sədr təyin olunandan sonra Bakıda tikinti işləri dayandırılıb: "Bakı şəhərində bu gün 50 mindən yuxarı insan işsizdir. Görəsən, bu şəxs bunun məsuliyyətini başa düşürmü? Ölkə prezidentinin fəaliyyətinin qayəsi vətəndaşları işlə təmin etməkdir. Ancaq Samir adlı bu cavan oğlan bir ilə yaxındır ki, Bakı şəhərində vəzifəyə gətirilib, tikintiyə icazə vermir. Xahiş edirəm, məsələni nəzarətə götürərdiniz".

F.Ağamalı vaxtilə maliyyə nəzarətinə Rüfət Aslanlının təyin olunduğunu xatırlatdı: "O zaman dedik cavan oğlandır, sonra da gördük nə oldu. İndi bu Samir deyilən cavan uşaq var, gəlib tikintiyə qadağa qoyub".

**Spiker Oqtay Əsədov** deputatın dediklərinə reaksiya verdi: "O şəxsin ad-soyadı var: Samir Nuriyev. Digər tərəfdən 50 min işçi harda dayanıb? Dəqiqləşdirilməmiş məsələləri belə qaldırıb ajiotaj yaratmaq lazım deyil. Araşdıraq, sonra burda məsələ qaldıraq. Prezident sərəncamı ilə təyin olunmuş adamdır, cavan uşaq, qoca uşaq. Bu, düzgün məsələ deyil".

Spiker məsələni araşdıracağını dedi.

**Deputat Aqil Abbas** "Kitabxana işi haqqında" qanun layihəsi ətrafında maraqlı fikirlər söylədi: "Bu gün rayonlarda kitabxanalar bağlanır və kiril əlifbası ilə nəşr olunan kitabları çölə tökürlər. Onda ərəb əlifbasından olan kitabları da çölə atmalıyıq. Sosial şəbəkələrdə də birdən 50 min kitabın çölə atlıdığını görürük". A.Abbas yeni, elektron kitabxanalardan da bəhs etdi. Dedi ki, elektron kitabxanaya gedib kitab oxuyanları tanımır: "Gözəl binalar tikib, ağzına da qıfıl vurublar. Kitab sevdiyin qız kimi gözəldir. Sən kitabı oxuyursan, onu sinənə qoyursan. Ya elektron kitabxanadan kitab oxudun, ya da əleyhqaz geyindin, qızılgül iylədin, fərqi yoxdur. Rayonlarda bir dənə kitab mağazası yoxdur, bağlayıb, əvəzinə ət satırlar".

**Deputat dedi ki, bu gün bəzi rayonlarda kitabxanalar var**: "Mən 1988-ci ildə Ağcabədinin Bayat kəndinə atamın imkanları hesabına gözəl bir kitabxana tikdirmişəm, qarşısına da Füzulinin büstünü qoydurmuşam. Mən indi istərdim bizim imkanlı deputatlar hərəsi bir kitabxana tikdirsinlər. Restoran açırsan, sağlığına qismət, amma kitabxana da tikdir. Məscid tikdirirsən, bir dənə də kitabxana tikdir, nə olar? Kitabxana vacib məsələdir. Bir də Mədəniyyət Nazirliyi kitabxanaya kitab göndərir, amma dövlət sifarişi ilə çap olunanları. Amma kim ki, şəxsi vəsaiti hesabına kitab nəşr etdirir, onları göndərmir".

İclasın sonunda **spiker Oqtay Əsədov** bir daha deputatları intizamlı olmağa çağırdı. Dedi ki, əksər deputatlar iclasa qatılıb, fəal iştirak edib. Amma bəzi parlamentarlar iclasın birinci hissəsində iştirak etsə də, ikinci hissəyə qatılmayıb: "Heç kimi bura zorla seçməyiblər. Bura bizim birinci iş yerimizdir. Gəlin bir-birimizə hörmət edək. Çünki belə mümkün deyil. Belə işləmək saymamazlıq olur. Səhv deyirəmsə, deyin. Özü də bu gün İntizam komissiyasının üzvlərinin sayını 11-ə çatdırmışıq".

❑ **Elşad PAŞASOY,**
**"Yenì Müsavat"**



# BMT-nin 4 qətnaməsinin ömrü nə qədərdir?

**Politoloq**: "BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ məsələsini müzakirə edib yeni bir qətnamə ortaya qoyarsa..."

**BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Dağlıq Qarabağ münaqişəsilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələr Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini təsdiqləyir. Söhbət 822, 853, 874 və 884 saylı qətnamələrdən gedir. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilandan dərhal çıxarılması tələb edilir. Bundan başqa, 2008-ci il martın 14-də BMT Baş Assambleyasında Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, Ermənistan silahlı qüvvələrinin işğal altındakı ərazilərdən çıxarılmasını tələb edən qətnamə qəbul edilib. Sənəddə azərbaycanlıların öz evlərinə qayıtmaq hüququ da təsdiqlənib.**

1994-cü ildə ATƏT-in tərkibində yaradılmış Minsk qrupunun vəzifəsi Dağlıq Qarabağ münaqişəsinin həllində məhkəmə rolunu oynamaqdır. Minsk qrupuna Türkiyə də daxil olmaqla, 17 dövlət üzvdür. Onlardan yalnız üçü - Rusiya, Fransa və ABŞ həmsədr dövlətlərdir. Bu həmsədrlər 1995-ci ildən etibarən münaqişənin həllində fəal iştirak edir. Lakin onlar işğala son qoyulması üçün hələ də ciddi addımlar ata bilməyib.

Xüsusilə də BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinə əməl edilmir. Bəs bu qətnamələrin ömrü nə qədərdir?

"Yeni Müsavat"a danışan **politoloq Mübariz Əhmədoğlu** bildirib ki, qətnamələrin müddəti məsələsi yoxdur: "Bu qətnamələri qüvvədən sala bilən yalnız bir parametr var ki, o da yeni qətnamənin qəbuludur. Yəni əgər BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ məsələsini müzakirə edib yeni bir qətnamə ortaya qoyarsa və orada da göstərərsə ki, filan qətnamə qüvvədən düşsün, yalnız bu halda həmin qətnamə ləğv edilə bilər. Başqa bir variantda BMT Təhlükəsizlik Şurasının mövcud qətnamələrini heç kim qüvvədən sala bilməz. Hətta ermənilər də bunu iddia etmirlər ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri qüvvədən düşsün. Sərkisyan hökuməti buna dair BMT Təhlükəsizlik Şurası ilə xeyli iş apardı. Hətta o zaman BMT-nin baş katibi Pan Gi Munun köməkçilərindən biri də erməni idi. Onların vasitəsilə də Sərkisyan çalışdı ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə kölgə salan bəyanat alsın. Lakin bacarmadılar. Qətnamələrin ləğvi ilə bağlı ermənilər üçün kiçik də olsa fürsət yaransaydı, Sərkisyan hökuməti bunu edəcəkdi. Çünki onlar bu amal üçün kifayət qədər ciddi səylər göstərirdilər".

**Politoloq söyləyib ki, hazırda ATƏT-in Minsk qrupu da çox normal fəaliyyətdədir:**

"Hazırkı dövrdə detalların müharibəsidir. Bu prizmadan baxanda ATƏT-in Minsk qrupunun qəbul etdiyi çox məsələləri görmürük, yaxud da xırda hesab edirik. Əslində isə həmin detallar Azərbaycanın xeyrinədir. Məsələn, biz, hazırda 5 rayonun qaytarılması məsələsindən danışırıq. Bizim ekspertlərin dediyi 5 rayonla, ATƏT-in Minsk qrupunun söylədiyi 5 rayon fərqlidir. Yəni ATƏT-in Minsk qrupunun dediyi 5 rayona Füzuli ilə Ağdam aid deyil. Ora, Kəlbəcər və Laçını salıblar. Bu dərəcədə onlar ermənilərdən uzaqlaşıb, obyektivliyə doğru yaxınlaşıblar. O cümlədən Azərbaycanın iqtisadi imkanları ilə Ermənistanın kompromis sərhədlərini müəyyənləşdirdilər. Yəni Azərbaycan Ermənistana kömək edir, iqtisadi əlaqələr qurulur. Bunun əvəzində isə Ermənistan bütün işğal olunmuş Azərbaycan ərazilərindən çıxır. ATƏT-in Minsk qrupunun fəaliyyəti bu istiqamətə dəyişdiyi üçün BMT tərəfindən Minsk qrupuna aktiv dəstək var. Ola bilər ki, bu, BMT-nin sonuncu baş katibinin işi ilə bağlıdır. Yəni Pan Gi Munun dövründə biz BMT-də Qarabağla bağlı ATƏT-in Minsk qrupuna hansısa dəstəyi görmədik. Lakin hazırda bu, belə deyil. Həmsədrlərin də sonuncu bəyanatına gördük ki, BMT, Avropa İttifaqı reaksiya verdi. Avropa İttifaqı dedi ki, xalqları sülhə hazır edə bilirsinizsə, biz də hazırıq. Dolayısı ilə bildirdilər ki, biz pul verməyə hazırıq, Ermənistan və Azərbaycan gəncləri, müharibədən zərər çəkənlər görüşsünlər. O cümlədən də BMT də öz imkanları daxilində buna dəstək olmağa çalışır. Ona görə də son gəlişmələrə uyğun olaraq deyə bilərik ki, BMT-nin təsiri ilə həm ATƏT-in Minsk qrupu obyektivliyə tərəf gəlir, həm də BMT-nin özünün fəaliyyətində dəyişiklik var. Amerikalı həmsədr fəaliyyətə başlayan zaman ilk addımı BMT rəhbərliyi ilə görüşmək oldu. ATƏT-in Minsk qrupu BMT-dən düzgün mesajlar alır və buna da əməl edir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Bolton Azərbaycana dəstək verir, Culiani onu alqışlayır...

## ...ermənilərsə, Tvitterdə Boltona hücum edir; Azərbaycan ətrafında əlverişli şərtlər toplusu

**Con Boltonun Ermənistanın baş naziri N.Paşinyana, daha sonra Prezident İlham Əliyevə zənginə dair mətbuata verilmiş məlumatların müqayisəli təhlili maraqlı mənzərəni ortaya qoyub.**



**İbrahim MƏMMƏDOV,**
**Tarix üzrə fəlsəfə doktoru**

**Con Boltonun öz Tvitter səhifəsində yayılmış məlumatda deyilir:** "Bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə danışdım. Biz, enerji təhlükəsizliyi, təhlükəsizlik sahəsində əməkdaşlıq və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində ABŞ-ın dəstəyi də daxil olmaqla bir çox ortaq maraqlarımızı müzakirə etdik".

**Bu bəyanatda iki mühüm ifadə var:** Birincisi, C.Bolton Azərbaycan Prezidenti ilə məhz "çoxsaylı ortaq maraqları" müzakirə edib. Bu o deməkdir ki, iki tərəfin çoxsaylı ortaq maraqları var və Dağlıq Qarabağ da məhz bu "ortaq maraqlar"ın siyahısına daxildir. İkinci mühüm ifadə isə "ABŞ-ın DQ münaqişəsinin həllində dəstəyi"nin ifadəsidir. Yəni, ABŞ Azərbaycana münaqişənin həllində dəstəyini ifadə edib. Bu çox mühüm ismarıcdır. Nəzərə alsaq ki, C.Bolton Paşinyanla olan telefon söhbəti zamanı belə bir dəstək ifadə etməyib. Deməli, Boltonun Azərbaycan Prezidenti ilə söhbətdə ifadə etdiyi "dəstək" Azərbaycana aiddir.

Ermənistan baş naziri isə deyir ki, Con Boltonun bir gün əvvəl Paşinyanla telefon söhbətində ümumiyyətlə, Qarabağ nizamlaması haqda söhbət olmayıb, amma, regional məsələlərin müzakirə edilib. Belə nəticə çıxır ki, C.Bolton N.Paşinyanla regional məsələləri müzakirə edib, amma Dağlıq Qarabağ münaqişəsinə toxunmayıb. Onda aydın olur ki, C.Boltonun N.Paşinyanla müzakirə edə biləcəyi yeganə regional məsələ İran məsələsi ola bilərdi.

Belə görünür ki, C.Bolton Prezident İlham Əliyevlə Dağlıq Qarabağ da daxil olmaqla "ortaq maraqları" müzakirə edib, amma Paşinyanla Qarabağ mövzusunda danışmayıb. **Buradan bir neçə nəticə çıxır:**

*- Azərbaycan İrana qarşı siyasətdə iştirak etmir;*

*- Azərbaycan Qarabağ nizamlamasında ABŞ-ın da dəstəyini alır. Amma Ermənistan belə bir dəstəyə malik deyil;*

*- ABŞ münaqişənin nizamlanması prosesinin güclü tərəfi kimi Azərbaycanı tanıyır.*

C.Boltonun bu bəyanatı danışıqlar masasında Azərbaycanın diplomatik-siyasi mövqeyini gücləndirir.

Yeri gəlmişkən, Con Boltonun "nizamlama prosesinə dəstəyini" Ermənistanın Baş naziri ilə deyil, Azərbaycanın prezidenti ilə müzakirədə ifadə etməsi çox maraqlı bir mənzərə yaradır. Belə görünür ki, Azərbaycan üzü üçün unikal əlverişli şərtlər toplusu formalaşdıra bilib. Təqribən iki həftə əvvəl İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Məhəmməd Baqeri Azərbaycana səfəri zamanı münaqişənin həllinə dair birmənalı bəyanat vermiş və işğal olunmuş ərazilərin tezliklə azad edilməsinin vacibliyini və DQ-ın Azərbaycanın tərkib hissəsi olduğu, sərhədlərin toxunulmazlığının vacibliyini xüsusi vurğulamışdı. General Məhəmməd Baqeri Azərbaycandan qayıtdıqdan sonra səfərin nəticələri haqda yerli mətbuata müsahibəsində də Bakıda verdiyi bəyanatları bir daha təkrar təsdiqləmişdi ki, bu da diplomatiyada çox vacib məqamdır.

Həm də çox maraqlıdır ki, hadisələrin bu inkişafı MDB sammiti zamanı Düşənbədə başlamış, Sankt-Peterburqda və Davosda davam etmiş prosesin çərçivəsində baş verir. Prezident Administrasiyasının şöbə müdiri Hikmət Hacıyev Davos görüşünü şərh edərkən, bunun məhz Düşənbədə başlanmış prosesin davamı olduğunu qeyd etmişdi.

Yeri gəlmişkən, Con Boltonun Azərbaycanın milli maraqlarına, DQ münaqişəsi ilə bağlı mövqeyinə müsbət təsir edən bu statusunun altında onlarla erməni və Riçard Kozlariç Con Boltona hücum edərək İ.Əliyevlə məhz insan haqları mövzusunda danışmağın lazım olduğu haqda isterika qaldırıblar.

*Bu nəyi göstərir? Onu göstərir ki, Azərbaycanın ərazilərinin işğaldan azad edilməsini istəməyən qüvvələr məhz "Azərbaycanda insan haqları" iddiasını önə çəkirlər. Bu anti-Azərbaycan dairələrin spekulyasiyasında əsas mövzudur.*

Odur ki, DQ münaqişəsinin nizamlanması ətrafında bir canlanma müşahidə edildiyi mərhələdə ölkənin daxilindən başlanıb, xaricdə şişirdilən insan haqları problemi ətrafındakı proseslərin nə ilə bağlı olduğu açıq-aşkar görünür.

C.Boltonun sözügedən bəyanatının altında ermənilər tərəfindən vurğulanan ikinci tezis "müsəlman azəri", "xristian erməni" vurğularıdır. Bununla da işğal siyasətinin tərəfdarları dini qarşıdurma faktorunu və Azərbaycanda insan haqları məsələsini paralel qabardır və C.Boltonu Azərbaycana müsbət çalarları olan bəyanata görə qınayırlar.

Nyu-Yorkun keçmiş meri, Prezident Donald Trampın dostu və vəkili Rudolf Culiani isə C.Boltonun Prezident İlham Əliyevlə telefon söhbəti və bu barədə bəyanatının altında belə yazıb:

**"Bu, dəqiq göstərir ki, bizim Prezident əla və yüksək ixtisaslı adamları təyin edəndə nələr baş verir. Təşəkkürlər, Con!"**

Rudolf Culianı Amerikada, Respublikaçılar arasında çox böyük nüfuza malik şəxsdir. Onun Prezidentin müşavirinin Azərbaycan Prezidenti ilə söhbətinə və verdiyi dəstəyə belə reaksiyası deməyə əsas verir ki, bütövlükdə ABŞ-ın indiki hakim elitası Azərbaycana və Prezident İ.Əliyevə dəstək verir.

Buradan biz C.Boltonun bəyanatının daxili siyasi əhəmiyyət kəsb edən məqamına çatırıq. C.Bolton Azərbaycan prezidenti ilə müzakirə etdiyi "ortaq maraqlar" dedikdə və bu maraqlar siyahısına enerji təhlükəsizliyi, təhlükəsizlik məsələləri və DQ münaqişəsinin həllində dəstəyi də nəzərdə tutduğu qeyd edilirsə, deməli, uzunmüddətli əməkdaşlıq planları müzakirə olunur. Ona görə ki, C.Boltonun sadaladığı məsələlər məhz əməkdaşlığın bazasını təşkil edən və uzun vədədə həyata keçirilən məsələlərdir. Yəni, ABŞ bu sadalanan, regional və hətta qlobal əhəmiyyətə malik məsələlərin həllində məhz Prezident İlham Əliyevi tərəfdaş kimi görür. Bu da uzunmüddətli əməkdaşlıq üçün körpülərin bərkidilməsidir.

**Yəni anti-Azərbaycan dairələr ABŞ - Azərbaycan münasibətlərində hər hansı bir problemin yaranacağı və bundan istifadə edəcəkləri xəyalına düşüb özlərini və ətrafdakıları aldatmasınlar. Boltonun bu zəngi və bəyanatının məzmunu göstərir ki, ABŞ üçün regionda əsas tərəfdaş Azərbaycandır. Daha dəqiqi uzunmüddətli regional məsələlərin həllində ABŞ özü üçün arxalana biləcəyi tərəfdaşları müəyyənləşdirib: bu, Azərbaycan və vacib əhəmiyyətə malik Azərbaycanda sabitliyi təmin edə bilən prezident İlham Əliyevdir. Heç bir pafossuz, soyuq məntiqlə çıxarılan nəticə budur.**

# "Bu gün manatın məzənnəsinə heç bir kənar faktor təsir etmir"

## Ekspert baş bankirin manat və əmanət açıqlamasını şərh etdi

**Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsinin 0,5 faiz bəndi azaldılaraq 9,75 faizdən 9,25 faizə endirilməsi barədə qərar qəbul edib.**

Bu barədə AMB-nin sədri Elman Rüstəmov keçirdiyi mətbuat konfransında məlumat verib.

Xatırladaq ki, qurumun rəhbərliyi ötən il dekabrın 26-da faiz dəhlizi parametrlərinin dəyişməz saxlanılması haqda qərar qəbul etmişdi.

**Mətbuat konfransında jurnalistlərin suallarını cavablandıran baş bankir bildirib ki, ölkədə devalvasiya gözlənilmir:** "Azərbaycanda devalvasiya haqqında danışılanlar qeyri-ciddidir. Bütün proqnozlar makroiqtisadi stabilik üzərində qurulub. Ötən il Azərbaycanın tədiyyə balansı profisitli olub. Azərbaycan Dövlət Neft Fondunun aktivləri 3 milyard dollar artıb. Cari ildə makroiqtisadi sabitliyi təmin etmək üçün istənilən qədər resurs var. 2019-ci il makroiqtisadi vəziyyət baxımından 2018-ci ilə oxşayır. İlk ildir ki, fiskal qaydalar fəaliyyət göstərir. Bu il Azərbaycan valyuta bazarına 6,8 milyard dollarlıq transfert daxil olacaq. Neftin qiymətinin təsiri əhəmiyyətli dərəcədə məhdudlaşdırılıb. Əsas siyasət aşağı inflyasiya, dayanıqlı məzənnə ideologiyası üzərində qurulub"(Report).

E.Rüstəmovun sözlərinə görə, prezident İlham Əliyev 2019-cu ildə və ortamüddətli dövrdə Azərbaycanda makroiqtisadi və maliyyə sabitliyinin dərinləşdirilməsi, onun dayanıqlığının artırılması ilə bağlı tədbirlər planının hazırlanması üçün Nazirlər Kabinetinə göstəriş verib. Onun sözlərinə görə, bu tədbirlər planının layihəsi artıq hazırdır: "Bu tədbirlər planı artıq müvafiq qaydada hazırlanaraq aidiyyəti üzrə təqdim olunub. Bu gün bu sənəd Azərbaycan hökuməti və Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış Maliyyə Sabitliyi Şurasında müzakirə olunmaq üçün diqqət mərkəzindədir. Bütün sənədlərin qüvvədə olmasına baxmayaraq, makroiqtisadi qurumların koordinasiyası ilə Azərbaycanda makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün cari ildə əlavə işlər, ortamüddətli dövrdə islahatlar həyata keçirməyi planlaşdırırıq. Lazımı islahatları həyata keçirək ki, bütövlükdə makroiqtisadi idarəetməni yaxşılaşdıraq və gücləndirək, bununla da gələcəkdə digər amillərin təsirini effektli neytrallaşdıra bilək".



E.Rüstəmov qeyd edib ki, dünya bazarında neftin baza qiyməti 60 ABŞ dolları olacağı təqdirdə Azərbaycanın tədiyyə balansının profisitli olması gözlənilir: "Profisitin məbləği ümumi daxili məhsulun 10 faizi qədər proqnozlaşdırılır".Onun sözlərinə görə, Azərbaycan nefti dünya bazarında ucuzlaşsa belə, bu dolların bahalaşmasına təsir etməyəcək: "Bütün bunlara görə Mərkəzi Bank və hökumətin vahid planı var. Qeyd etdiyim kimi, makroiqtisadi situasiya nəzarət altındadır. 2017-2018-ci illərdə ölkədə makroiqtisadi sabitlik hökm sürüb. 2019-cu ildə də belə olacaq".

O, 2019-cu ildə də rəhbərlik etdiyi qurumun valyuta ehtiyatlarının məbləğində artım proznozlaşdırdığını bildirib.

İqtisadçı-ekspert Samir Əliyev bildirir ki, manatın taleyi hazırda hökumətin əlindədir: "Yeni hökumət istəsə məzənnəni dəyişər, istəməsə dəyişməz. Bu gün Azərbaycan manatının məzənnəsinə heç bir kənar faktor təsir etmir. Qeyd edim ki, manatın məzənnəsinin aşağı salınması bugünkü iqtisadi konyuktur baxımından Azərbaycana sərf etməyən variantdır. Ölkənin qeyri-neft ixrac qabiliyyəti yüksək deyil. Manatın zəifləməsi iqtisadiyyata ciddi zərər vura bilər. Manata təsir göstərəcək yeganə amil neftin qiymətidir. 2008-2009-cu illərdə neftin qiyməti düşərkən hökumət gözləmə mövqeyi tutdu, manatın məzənnəsini düşməyə qoymadı. Və neftin ucuzlaşması qısamüddətli olduğu üçün bu mövqe uğur gətirdi. Lakin 2014-2015-ci illərdə başlanan ucuzlaşma uzunmüddətli oldu və hökumət valyuta ehtiyatlarının böyük bir qismini itirdi. Hazırda da vəziyyət dünya bazarında neftin qiymətinin nə qədər uzun müddətə düşməsindən asılıdır. Qısamüddətli dövr üçün hökumət yəqin ki, yenə gözləmə mövqeyi seçəcək. Amma uzun müddət qiymətlər aşağı olarsa, hökumət minimum itkilərlə vəziyyətdən çıxmaq üçün manatın məzənnəsini aşağı sala bilər".

Qeyd edək ki, Mərkəzi Bank rəhbəri həmçinin Azərbaycanda "Əmanətlərin tam sığortalanması haqqında" qanunun qüvvədə olma müddətinin artırılmasını da mümkün saydığını bildirib. Xatırladaq ki, sözügedən qanun bank əmanətlərinin 3 il müddətində tam sığortalanmasını nəzərdə tuturdu ki, həmin müddət də bu ayın sonunda başa çatır.

**S.Əliyev deyir ki, bu qanunun tələblərinə görə banklara yerləşdirilmiş bütün əmanətlər qorunur**: "Yaxın bir ay ərzində müddət uzadılmasa bu qanun qüvvəsini itirəcək və əvvəl qüvvədə olmuş qanun - "Əmanətlərin sığortalanması haqqında" Qanun yenidən işləyəcək. Bu halda bağlanacağı təqdirdə bankdan alınacaq kompensasiyanın həcmi 30 min manatdan çox olmayacaq. Bunun üçün gərək əmanətçinin bir bank üzrə əmanətlərinin həcmi illik faizlə birgə 30 min manatı ötməsin. Belə vəziyyətdə xarici valyuta, o cümlədən dollar əmanətçiləri üçün bu limit ümumiyyətlə sərf etmir. Çünki sığorta hadisəsi baş verəcəyi təqdirdə onların alacağı kompensasiyanın maksimum həcmi təxminən 17647 dollar olacaq".

**Ekspertin sözlərinə görə, əmanətlərin tam sığortalanması və manatın sabitliyi nəticəsində əmanət qoyuluşunda artım müşahidə edilməyə başlayıb:** "Hazırda manat əmanətlərinin həcmi 2014-cü il həddinə (4,4 milyard AZN) çatmasa da, 3 milyard AZN-ə qədər artıb ki, bu da 2012-ci il səviyyəsidir. Ümumi əmanət qoyuluşunun həcmi isə 8 milyard AZN-i ötüb. Bunun əsas səbəbi manatın sabitliyi və əmanətlərin tam sığortalanmasıdır. Fikrimcə, bu qanun ən azı daha bir il (3 il olsa daha arzuolunandır) uzadılmalıdır. Çünki bankların bağlanması riski tam aradan qalxmayıb və əmanətçilərin proseslərə həssaslığı qalmaqdadır. Ancaq sığortalanma şərtləri dəyişməlidir. Çünki banklarda izafi likvidlik yaranıb. Yüksək faizlə əmanətləri cəlb ediblər, ancaq həmin vəsaitləri, o cümlədən digər mənbələrdən cəlb edilmiş depozitləri kreditləşməyə yönəltməkdə çətinlik çəkirlər. Ona görə də əsas diqqət resursların ucuzlaşdırılmasına yönəldilməlidir. Bunun yollarından biri kimi sığortalanan əmanətlərin illik faiz dərəcəsi aşağı salınmalıdır. Qorunan əmanətlərin illik faiz dərəcəsi artdıqca sığorta haqları da ona uyğun artırılmalıdır. İllik faiz dərəcəsi 15 faizdən yüksək faizlə cəlb edilən əmanətlər isə sığortalanmamalıdır. Bu addım bir tərəfdən əmanət bazarında illik faiz dərəcələrinin azalmasını təmin edəcək, digər tərəfdən bankları yüksək faizlə əmanət cəlbi niyyətindən çəkindirəcək".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Bank Tovuzda krediti borcludan deyil, zamindən alır

## "Accessbank"ın filialından kredit götürən şəxs qalıb kənarda, onun borcunu müəllimin maaşından tuturlar

**Azərbaycanda on minlərlə insan bank borcuna görə məhkəmə qərarlarından əziyyət çəkir. Özü də əksər hallarda qərarlar qarşı tərəfin iştirakı olmadan qəbul edilir. Belə qərarlardan biri də Tovuz rayon Yuxarı Öysüzlü kənd sakini Fəxrəddin Aslanov barəsində çıxarılıb.**

Kənddə yerləşən orta məktəbin direktor müavini olan F.Aslanovun "Yeni Müsavat"a dediyinə görə, artıq neçə aylardır etibar edib zamin durmağının acı nəticəsini yaşayır: "2014-cü ilin mayında həmkəndlim və müəllim həmkarımın xahişi ilə onun əmisi oğlu, kəndimizin sakini İbrahimov Saheddin Ədil oğluna "Accessbank"ın Tovuz rayon filialından kredit götürməsi üçün zamin durmuşuq. O, bankdan 10 min dollar götürüb. Bir neçə ay ödəniş etdikdən sonra dolların məzənnəsi qalxdı, S.İbrahimov krediti ödəməkdən imtina etdi. Bizim və bank əməkdaşlarının təkidlərinə baxmayaraq, ödəniş etmədi. İki ilə yaxın vaxt keçəndən sonra məlum oldu ki, bank o adamı məhkəməyə verib, bizi də cavabdeh şəxs kimi göstərib və məhkəmə iştirakımızı təmin etmədən qərar qəbul edib. Qərar isə belədir ki, kredit götürən şəxsin böyük əmlakı, bahalı yük avtomobili, həyətində iri ərzaq mağazası nəzərə alınmadan, eyni zamanda digər zaminin də onun əmisi oğlu olmasına əhəmiyyət verilmədən pulun ödənməsi mənim əmək haqqımdan təmin olunsun. Təsəvvür edin, bank və məhkəmə krediti götürən şəxsin girov qoyulan əmlakını hərraca çıxarmaq əvəzinə özləri üçün rahat yolu seçib ödənişi mənim əmək haqqıma yönəldiblər".

**Məhkəmə qərarına əsasən F.Aslanovun 388 manat təşkil edən aylıq əmək haqqının 193 manatı S.İbrahimovun kreditinin ödənməsinə tutulur:** "Bizi məhkəməyə çağırmayıblar. Zamin duran zaman bizim bütün əlaqə vasitələrimiz qeyd olunmuşdu. Digər tərəfdən, məhkəmənin rayon yerində müəllim işləyən adamı tapa bilməməsi absurddur. Mənə heç bir çağırış gəlməyib axı. Məhkəmənin qərarından apelyasiya şikayəti verdim. Apelyasiya Məhkəməsi də bizim iştirakımız olmadan qərarı qüvvədə saxladı. Başa düşmürəm ki, biz iki zaminik, niyə indiyədək kredit götürənin əmisi oğlu olan digər zamindən pul tutulmur, məndən tutulur? Mənim öhdəmdə öz ailəmdən əlavə əlil qardaşım, əqli qüsurlu olan bacım var. Özüm xərclərimi qarşılamaq üçün kredit götürmüşəm, ayda 106 manat da ona ödəyirəm. İndi məndən ayda 299 manat kredit tutulur. Bu qanunsuzdur axı? Qardaşım yataq xəstəsidir, onun əməliyyatına 13 min dollar pul lazımdır. Mənim əmək haqqım başqasının kreditinin ödənməsinə gedirsə, mən nəylə dolanım? Bu adamın krediti qaytarmağa imkanı yetərincədir axı! Niyə məhkəmə, icraçılar onu məcbur etməkdənsə gözlərini mənim əmək haqqıma dikiblər? Bu gün banklarla məhkəmələr birlikdə əhalinin qanına susayıblar. İnsanları kütləvi şəkildə dövlətdən, hökumətdən narazı salmaqla məşğuldular".

***P.S.** Məsələ ilə bağlı qarşı tərəflərin də mövqeyini dərc etməyə hazırıq.*

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019



# Halal virus

Zamin HACI
zaminhaci@gmail.com

"Tülkü dedi: - Adamlar bu həqiqəti yaddan çıxarıblar, amma sən unutma: kimi əhliləşdirmisənsə, həmişə ona cavabdehsən".
*(Antuan de Sent-Ekzüperi, "Balaca şahzadə")*

**Ötən yazımda ABŞ prezidentinin qlobal iqlim dəyişmələrini anlamadığını yazmışdım, əslində amerikalılar iqlim məsələsinə o qədər də diqqətsiz deyildirlər. Örnək üçün, əgər siz ABŞ Konqresinin maliyyələşdirdiyi "Azadlıq" radiosunun saytına girib baxsanız (bunun ancaq saytı qalıbdır, hökumətimiz qalan yerlərini bağlayıbdır; saytın özünə də girmək üçün gərək VPN istifadə edəsən - blok edilib) orada Azərbaycandakı hava durumu haqda xeyli xəbər oxuya bilərsiniz. Özü də bu xəbərlər hansısa gözlənilməz hava durumuyla bağlı, qeyri-adi xəbərlər olmur. Görürsən bizə xəbər verirlər: "Sabah Bakıda duman olacaq". Gözüm aydın. Amerika zəhmətkeşləri, o cümlədən Rəsul müəllim hər ay vergini ödəyib bu radionu ona görə saxlayır ki, siz Azərbaycan hidrometeoroloqlarının (hava xəbərçisi desək, ağzımız əyilməzdi; dilçilərimiz ölməsəydi bu günə düşməzdik) informasiyasını bizə sırıyasınız? Ölkəmizdəki havanı bizə deyən min dənə yerli orqanımız vardır.**

Sözgəlişi, mən yüngülvari araşdırma aparmışam, "Azadlıq" radiosunun Azərbaycan redaksiyası hava xəbəri verən yeganə qoldur. Yəni, bu radionun başqa millətlərin dilində yayıma çıxan redaksiyaları Rusiyada, Özbəkistanda-zadda hava durumunu yaymırlar, doğru da eləyirlər. Yenə deyirəm, orda zəhmətkeşlər pulu ayırır ki, siz azərbaycanlılar üçün faydalı xəbərlər tapıb verəsiniz. Ancaq bəlkə də burda xarici qara qüvvələrin rolu var, yoxsa Bakıda duman olacağını niyə yayırlar? Demək istəyirlər sizin taleyiniz dumanlı görünür. Vay sizi xatakarlar... Hərçənd, işin gülməli tərəfi odur ki, bizim hökumət bunu bloka atıbdır. Abşeron yarımadasında nisbi rütubəti öyrənmək zəhmətkeşlərimizə qadağan edilibdir. Əcəb işdir. 90-cı illərdə bizim senzura Üzeyir Hacıbəyovun felyetonunu qəzetdən kəsib çıxardırdı. Başa sala bilmirdik ki, bunu neçə min tirajla kitabda çap ediblər.

O da var ki, xəbəri kimdən eşitməyin rolu böyükdür. Biri var adamın özününkü səni qırağa çəkib ayaqqabının peyinə bulaşdığını söyləsin, biri də var hansısa yoldan keçən dişini ağarda-ağarda desin, qağa, yaman ... düşmüsən. Bunların insanda doğurduğu təsirlər çox fərqlidir. Eyni durumu donuz qripinin Azərbaycanda yayılması əhvalatında da duyduq.

Camaat asqırıb-öskürüb pis günə düşürdü, Səhiyyə Nazirliyimiz isə böyük rəşadət və mətanətlə xəbərlərə sinə gərirdi, deyirdi, bizdə donuz qripi yoxdur. Hətta izah da edirdilər ki, donuz qripinin yaranması üçün bizdə gərək donuzçuluq inkişaf eləsin, biz isə o kinoda deyilən kimi, "Allahın xoşuna gəlməyən murdar heyvanı" saxlamırıq. Hərçənd, eyni məntiqlə gərək biz meymun kimi ağacdan-ağaca hoppanaydıq, çünki dükan-bazar bananla doludur. Lakin bir gün Dünya Səhiyyə Təşkilatı (ay camaat, bəsdirin bunu ruscadan hərfi tərcümə edib "ümumdünya" yazdınız) Azərbaycanda azı 16-17 nəfərin donuz qripi olduğunu açıqladı. Kimə inanaq? Əlbəttə, öz nazirliyimizə. Nazirlik də dedi elə şey yoxdur. Ancaq bir-iki gün keçdi, idarədən təzə açıqlama gəldi, deyir qrip var, olmuşdur, lakin buna tam donuz qripi demək düz olmaz. Fantastik izahat idi. Deyir, qripin donuz qripi olması üçün gərək bu, donuzdan adama keçsin. Ancaq bizdə aşkarlanan donuzdan adama keçmiş virusun sonradan başqa adama keçmiş formasıdır. Əhsən. Nazirlik demək istəyir biz o qədər inkişaf eləmişik, hətta qrip virusunun heyvanı da bizə gələndə dönüb adam olur.

**Məndə gizli məlumat var, öyrənmişəm ki, alimlərimiz hazırda donuz qripinin adam olmuş virusunun uşaqların boğazında çöp qalma, toy gecəsi sudurğası, evdən qaçan gəlin sindromu (EQGS), falçıdan qurd yağı qapma psixozu və sairə xəstəliklərin müalicəsində istifadəsi üzərində çalışırlar. Ən başlıca elmi istiqamət isə halal qrip virusunun yaradılmasıdır. Nəticələri öyrəndikcə sizə yazaram, bizimlə qalın.**




# Moskva Paşinyana "konfet" əvəzinə, kağızını göstərdi - 4 müasir qırıcı: hədiyyə, yoxsa...

## Ermənistan 2020-ci ildə 4 SU-30SM alacaq, bir şərtlə ki...; Kreml başçısı qərbpərəst erməni baş naziri özünə möhkəm bağlamaq üçün planlar qurur

**İrəvan-Moskva münasibətlərində "məxməri inqilab"dan başlayan qeyri-müəyyənlik dövrü davam edir. Bunu ən azı, ondan görmək olar ki, Rusiyanın Ermənistana satdığı təbii qazın qiyməti ilə bağlı hələ də yekun anlaşma əldə olunmayıb. "Qazprom" yanvarın 1-dən qiyməti 150 dolardan 165 dollara qaldırıb. Ermənistanda anti-Rusiya ovqatı da yetərincə güclü olaraq qalır. Gümrüdəki 102 saylı rus hərbi bazasını ölkədən çıxarmaq tələbləri səslənir.**

Doğrudur, N.Paşinyan Putin inansa da, inanmasa da, Kremlə sədaqət andı içməkdə davam edir. Eyni sözləri o, ötən ay Moskvaya etdiyi sonuncu səfəri zamanı bəyan elədi. Amma maraqlıdır ki, Putin Moskvaya gəlmiş Nikol Paşinyanla bu dəfə görüşməkdən imtina elədi.

Bütün bunlar, əlbəttə ki, Rusiyanın Ermənistandan üz döndərməsi və ya oradan çıxmağa hazırlaşması anlamına gəlmir, daha çox Ermənistanın yeni hökumətini müxtəlif üsullarla "tərbiyələndirmək" istəyi təəssüratı yaradır. Hər necə olmasa, Ermənistan Güney Qafqazda Moskvanın yeganə legitim hərbi qalası, bölgədəki "gözü" olaraq qalır.

*****

Bu arada Ermənistanın Rusiyadan Su-30SM müasir qırıcılarını almasına dair müqavilənin təfərrüatları məlum olub (virtualaz.org). "Kommersant" qəzetinin yazdığına görə, Rusiya Ermənistana 4 belə qırıcı satacaq. Özü də texnikanın qiyməti ixrac qiymətindən xeyli ucuz, Rusiya ordusu üçün nəzərdə tutulan qiymət olacaq. Qəzet yazıb ki, bunu Ermənistan və onun baş naziri Nikol Paşinyan üçün mühüm hadisə hesab etmək olar. Çünki on illərdən bəri ilk dəfə Ermənistan Hərbi Hava Qüvvələri işlənmiş deyil, yeni aviatexnika alacaq.

Yada salaq ki, qırıcıların alınmasına dair müqavilənin bağlandığı haqda ötən gün Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirmişdilər. Lakin alınacaq təyyarələrin sayı və digər təfərrüatlar açıqlanmamışdı. Bildirmişdilər ki, Rusiyanın ayırdığı növbəti güzəştli 100 milyon dollar silah krediti çərçivəsində silahların alınması reallaşmaq üzrədir.

Rusiyanın aviasiya sənayesindəki müəssisələrdən birinin top-meneceri deyib ki, müqavilənin şərtinə əsasən, Ermənistan 2020-ci ildə 4 Su-30SM qırıcısı alacaq. "Sövdələşmə KTMT xətti ilə əldə edilib. Müqavilə kommersiya xarakterli hesab edilsə də təyyarələrin alınması Rusiyanın ayırdığı güzəştli kredit hesabına həyata keçirilir. Ermənistan HHQ üçün hər maşının qiyməti Rusiya silahlı qüvvələri üçün nəzərdə tutulan qiymət olacaq" - mənbə bildirib.

4+ nəsil Su-30SM qırıcılarının bazar qiyməti 50 milyon dollara yaxındır. Lakin silahlanmadan və modifikasiyadan asılı olaraq qiymət arta, yaxud azala bilər. Belə çıxır, Rusiya bu təyyarələrin birini Ermənistana 25 milyon dollara satacaq - yəni təxminən yarı qiymətə. Bu xüsusda "Kommersant"a danışan mənbə deyib ki, Rusiya tərəfindən bu cür sövdələşmə Ermənistan üçün əsl hədiyyədir. Müqaviləyə əsasən, erməni təyyarəçilər bu qırıcıları idarə etmək üçün Rusiyanın hərbi təhsil müəssisələrində hazırlıq da keçəcəklər. "Mahiyyətcə bu, Ermənistanın Nikol Paşinyanın dövründə imzaladığı ilk müqavilədir. Bizim üçün KTMT üzrə müttəfiqin yanında mövqelərimizin möhkəm olmasına əmin olmaq vacibdir" - qaynaq ələvə edib.

*****

Xatırladaq ki, ötən ilin iyununda Nikol Paşinyan Erebuni aviabazasında Su-30SM qırıcısının pilot kabinəsində çəkilmiş fotosunu nümayişkaranə şəkildə yaymışdı. Təyyarəni də Paşinyana məhz nümayiş etdirmək üçün gətirmişdilər.

Təbii ki, Azərbaycanın bu sövdələşməyə reaksiyası mənfi olacaq. Hərbi analitiklərə görə, bu anlaşma Bakını təşviq edə bilər ki, Rusiyadan yeni təyyarələr alsın. Moskvanın bir hədəfi də yəqin ki, elə budur - kommersiya maraqları, pul qazanmaq. Özü də Rusiya qırıcıları Bakıya başqa silahlar kimi bazar qiymətinə verəcək.

Xatırladaq ki, az öncə prezident İlham Əliyev Davosda Rusiya telekanalına müsahibəsində bildirmişdi ki, Azərbaycan Rusiya ilə yeni iri silah müqavilələri bağlayıb. Amma bu müqavilələr çərçivəsində hansı silahların alınacağına dair məlumat yoxdur.

Hələ ki Azərbaycan HHQ-nin silahlanmasında 4-cü nəsil qırıcılar yoxdur. Yeri gəlmişkən, Bakı xeyli vaxtdır Pakistan-Çin istehsalı olan 4-cü nəsil JF-17 qırıcıları ilə maraqlanır. Azərbaycan belə qırıcıları almaq üçün danışıqlar aparır və bu yöndə hətta ilkin razılaşmanın mövcud olduğu bildirilir...

*****

O ki qaldı İrəvana gələn il veriləcək müasir rus qırıcılarına, aydındır ki, 2020-ci ilədək Ermənistanın indiki rəhbərliyinin Rusiya və Qərblə bağlı siyasi kursu qəti olaraq bilinəcək. Yəni gizli qərbpərəst olan Nikol "nala-mıxa" vurmaqda davam eləsə, qırıcılar Ermənistana tədarük edilməyə və ya edilməsi yenidən ertələnə bilər. Bir şey dəqiqdir ki, havayı pendir (ucuz silah - "YM") yalnız tələdə olur.

Üstəlik, 2020-ci ilin hansı ayının nəzərdə tutulduğu da hələ bilinmir. Söhbət gələn ilin sonlarından, yəni haradasa 2 illik bir zaman kəsiyindən gedir. Bu isə az müddət deyil. Həmin müddətdə Ermənistanda Kremlin də dəstəyi ilə iki dəfə hakimiyyət dəyişikliyi baş verə bilər. Həmçinin Kremlin rüsxəti ilə Qarabağ savaşının qızışması istisna deyil.

Görünən odur ki, V.Putin xoşlanmadığı, lakin hələlik siyasi səbəblərdən işləmək zorunda qaldığı Nikol Paşinyana onun sevdiyi keyfiyyətli rus "konfeti"nin yalnız bəzəkli "kağızı"nı göstərib. Bu xüsusda SU-30SM hədiyyəsi əslində hədiyyə yox, Paşinyan hökumətinə siyasi avansdır, sonuncunun Moskvaya daha da bağlanması üçün düşünülmüş yaxşılıqdır.

İmzalanan sənədlərə Rusiyanın qoyduğu imzaya hörmət məsələsinə gəlincə, Krımın ilhaqı bir daha göstərdi ki, bu, Moskvadan ötrü boş şeydir. Məlumdur ki, Rusiya ABŞ, Böyük Britaniya və Fransa ilə birgə hələ 1995-ci ildə Ukraynanın nüvə silahından imtinası qarşılığında onun ərazi bütövlüyünə təminatla bağlı dair Budapeşt sənədi imzalamışdı. Sonrası bəllidir.

**Eyni qaydada Moskva İrəvanla imzaladığı istənilən sənədə tüpürə və Ermənistan üzərindən təhlükəsizlik qarantını götürə bilər...**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019

**Ermənistanın baş naziri Nikol Paşinyanın Almaniyanın Köln şəhərində erməni icmasının nümayəndələri ilə görüşü zamanı səsləndirdiyi fikirlər Azərbaycanda ciddi etiraza səbəb olub.**

# Paşinyanın "güzəştə getmirik" açıqlamasına reaksiyalar

## **Elxan Şahinoğlu:** "Paşinyan münaqişənin həlli istiqamətində addım atmasa..."



"Azərbaycan güzəştlərə hazır olub-olmadığını bəyan etməyənə qədər Ermənistan bu barədə suala cavab verməyəcək. Anlamıram niyə Qarabağ münaqişəsinin nizamlanmasında güzəştlər məsələsini hər vaxt Ermənistandan soruşurlar. Kim deyir ki, Ermənistan bu məsələdə mövqeyini birinci açıqlamağa borcludur? Niyə heç kim Azərbaycandan qarşılıqlı güzəştlərə hazır olub-olmadığını soruşmur?" deyə, o bildirib.

Erməni baş nazirin "Qarabağ klanı"nın əlinə fürsət verməmək üçün də belə açıqlamalar verdiyi ehtimal edilir.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin Elxan Şahinoğlu** "Yeni Müsavat"da məsələyə bu cür mövqe sərgilədi: "Nikol Paşinyan açıqlama verdi ki, sülh əvəzinə, Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayacaq. Buna cavab olaraq Azərbaycan XİN bəyanat yaydı ki, Paşinyanın mövqeyi danışıqlara ziddir. Çünki bütün həll planlarına görə Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları azad etməlidir. Deməli, Paşinyanın mövqeyində dəyişən bir şey yoxdur. Bu arada, o bir neçə ay əvvəl Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyanı xəbərdar etmişdi. Paşinyan Saakyana demişdi ki, Dağlıq Qarabağdakı separatçılar Ermənistanın daxili işlərinə qarışmasınlar, Paşinyan Saakyana bu sözləri həm İrəvanda, həm də Xankəndində demişdi. Buna baxmayaraq, separatçılar Paşinyanın xəbərdarlığına diqqət yetirmirlər. Məsələn, "Dağlıq Qarabağ Respublikasının Təhlükəsizlik Şurasının katibi" Vitaliy Balasanyan keçən həftə erməni saytlarından birinə müsahibəsində deyib ki, eks-prezident Robert Köçəryanın hakimiyyəti devirmək maddəsi ilə ittiham olunması doğru deyil. O belə sual səsləndirib: "Hakimiyyətdə olan şəxs hakimiyyəti necə devirə bilər?" Balasanyan baş nazir Nikol Paşinyanı misal gətirərək, "bu ona bənzəyir ki, Paşinyan hakimiyyətdə qalmaq üçün hakimiyyətə qarşı çıxır". Göründüyü kimi, separatçıların təmsilçisi Paşinyana təzyiq edir, baş nazirin siyasətinin əleyhinə çıxır. Vitaliy Balasanyan Paşinyanın rəqiblərinə açıq dəstək verir. Vitaliy Balasanyan Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Parisdə imzaladıqları bəyanatda "xalqları sülhə hazırlamaq lazımdır" müddəasını da anlamadığını bu sözlərlə ifadə edib: "Sülh sazişi olmadan xalqlara barış necə hazırlamaq olar?". Göründüyü kimi, Xankəndi danışıqların hazırki gedişindən də narazıdır. Əslində Balasanyan lideri Bako Saakyanın düşündüyünü deyir. Paşinyan separatçılara növbəti dəfə cavab verməlidir. O, Xankəndindən ona qarşı uzanan ittihamlara reaksiya bildirməsə onun rəqibləri daha da fəallaşacaqlar. İrəvanla Xankəndi arasındakı mübahisə Bakıda diqqətlə izlənilməlidir. Çünki separatçıların məqsədi Paşinyanın mövqelərini zəiflətməkdir. Bu didişmədən faydalanmaq lazımdır. Əlbəttə Paşinyanın yerinə "Qarabağ klanının" hakimiyyətə gəlişi xeyrimizə deyil. Ancaq bu o demək deyil ki, Paşinyanın sərsəmləmələrinə göz yummalıyıq. Paşinyan bir neçə ay ərzində münaqişənin həlli istiqamətində addım atmasa, Azərbaycan ordusu yenidən sözünü deməlidir".

**Politoloq Əhəd Məmmədli** Paşinyanın çıxışlarında Kremlin əlinin olduğunu düşünür: "Paşinyanın Ermənistanın əvəzinə, Azərbaycanın güzəştlərə getməsini bəyan edir. Üstəlik də deyir ki, Qarabağın müqəddəratını həll etmək üçün ətraf işğal edilmiş 5 rayonu da azad etməyəcək. İşğal edilmiş digər iki rayon Kəlbəcər və Laçından söz belə açmır. Həm Paşinyan, həm də onun xalqının güzəştə getməyə məcbur edilməsinin yeganə yolu Azərbaycan ordusudur. Ermənistana eyforiyadan ayılmaq üçün soyuq bir duş lazımdır bunu da ancaq Azərbaycan əsgəri edə bilər. Bu çıxış daxili auditoriyaya da hesablana bilər, amma Paşinyan xarici qüvvələrə arxayın olmasa idi, bu cür cəsarətli, danışıqları pozan çıxışlar etməzdi. Daha doğrusu, Paşinyan Rusiyaya bu qədər güvənməsəydi, Azərbaycanla açıq qarşıdurmaya getməzdi. Bu da o deməkdir ki, Azərbaycan bu məsələdə Rusiyaya qətiyyən güvənməməlidir".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli** hərbi əməliyyatların başladılmasından söz açdı: "Qarabağla bağlı məsələ növbəti dəfə başqa bir siyasi qüvvə tərəfindən istismara hazırlanır. Mən bilmirəm artıq danışıqlarla bağlı hansı müsbət tendensiya müzakirə edilib və gələcəyə yönəlik ümid dolu bəyanatlar vermək indiki halda nə qədər doğrudur. Qarabağ məsələsi həmişə Ermənistandakı siyasi həyatın əsas ilhamvericisi olub. İndi də o cür davam edir. Paşinyan düzdü, İlham Əliyevlə müxtəlif qeyri - siyasi formatda görüşüb. Hər iki ölkədə "Sülh əvəzinə ərazi" ideyası müzakirə edilir. Lakin heç kimə detal məlum deyil. Üstəlik, bu, daha çox Paşinyanin ölkədaxili siyasi gedişinə hesablanmış açıqlamalardır. Artıq daha əminliklə demək olar ki, Dağlıq Qarabağ ətrafında formalaşan Rusiya, ABŞ marağı Ermənistanın boyunu aşıb. Bu güclər heç də Qarabağın Azərbaycana qaytarılmasında maraqlı görünmür. Belə olan halda Paşinyan olmasın, X siyası iradə olsun, nəticə görməyəcəyik. Qarabağ məsələsi Paşinyana imkan verəcək ki, rəqiblərinə qarşı total hücumlar edib , onları sıradan çıxarsın. Artıq birmənalı şəkildə düşünmək olar ki, Azərbaycan hərbi əməliyyatlara başlamalıdır. Həm də antiterror əməliyyatına. Heç bir danışıqlar prosesi, güzəştli bizi qane etmir. Ərazi işğal altında qalıb, bir milyon məcburi köçkün var. Qaçqın şəhərciklərində artıq böyüyən nəçənci nəsil var. Bu qədər müharibə abı-havasında davam edən, tərbiyə edilən sosium da problemin əsasən də müharibə yolu ilə həllini tələb etməkdədir. Və bu tendensiya, çağırış artıq artmaqdadır. Ona görə düşmən ölkədə olanları, siyasi münasibəti gündəmdən çıxarmağımız və ordu yeritməyimiz lazımdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

---



## "Sülhə Azərbaycanı yox, Ermənistanı hazırlamaq lazımdır"

### **Sülhəddin Əkbər:** "Danışıqlar kənardan sırınan prinsiplər yox, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında aparmalıdır..."

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşəbbüsü və iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Parisdə keçirilən görüşündən sonra həmsədrlərin "Xalqların sülhə hazırlanması məsələsi müzakirə edildi" bəyanatı cəmiyyətdə müzakirə mövzusu olaraq qalır. Eyni zamanda xalqları sülhə necə hazırlamaqdan söhbət getdiyi müzakirə edilir.**

Bu barədə "Yeni Müsavat"a şərhində **Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** öncə bildirdi ki, Qarabağ məsələsinə yanaşma yanlışdır: "Əvvəla, məsələyə konseptual yanaşmanı düzəltmək lazımdır. Çünki konseptual yanaşma düzəlmədən məsələnin həllinə düzgün baxış formalaşdırmaq qeyri-mümkündür. İkincisi, Azərbaycanın tənzimləmə prosesinə yanaşması dəyişilməlidir. Bilirsiniz ki, münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Bu qətnamələr işğalçı erməni qoşunlarının qeyd şərtsiz Azərbaycan ərazilərindən çıxarılmasını tələb edir. Yəni Azərbaycanın danışıqları əlində BMT Təhlükəsizlik Şurasının onun maraqlarına tam cavab verən bu dörd qətnaməsi əsasında aparmalıdır. Bu mühüm hüquqi əsas ortada olduğu halda, Azərbaycan danışıqları ona kənardan sırınan prinsiplər əsasında aparmamalıdır. Bizə kənardan sırınan prinsiplər isə Azərbaycanın maraqlarına uyğun olmayan prinsiplərdir. Bundan qəti imtina eləmək lazımdır. İşğal faktı aradan qalxmadan xalqı sülhə hazırlamaq məsələsinin özü məhz bizə kənardan sırınan zərərli prinsiplərdəndir. Üçüncüsü, Azərbaycan torpaqları işğalda olduğu vaxtda hansı sülhdən, xalqı hansı sülhə hazırlamaqdan söhbət gedə bilər? İşğal aradan qalxmadan xalqı sülhə razılaşdırmaq necə mümkündür?! Torpaqlar işğalda ola-ola, Azərbaycan xalqını sülhə hazırlamaq mümkün deyil. Azərbaycan torpaqlar işğalda ola-ola xalqı sülhə hazırlamağa çağırmaq və ya vadar etmək Azərbaycan xalqını öz torpağını birdəfəlik itirməyə hazırlamaq deməkdir. Minsk Qrupunun həmsədrlərinin "xalqları sülhə hazırlamaq" istəyi buna hesablanıb. Onların niyyəti budur. Halbuki bu niyyətin reallaşmasına Azərbaycan xalqının razı olması qeyri-mümkündür. Hər kəs, bütün beynəlxalq birlik anlamalıdır ki, heç bir xalq öz torpağının bir qarışının düşmənə verməyə razı olmaz. Hər kəs bilməlidir ki, beynəlxalq hüquqa əsasən Azərbaycan xalqının öz razılığı olmadan onun bir qarış torpağını belə onun əlindən almaq və kiməsə vermək mümkün deyil. Çünki sonunda referendum keçirilməlidir və Azərbaycan xalqının mövqeyi bildirilməlidir. Xalqın isə referendumda öz torpaqlarından vaz keçməyəcəyi bəllidir".

**S.Əkbər hesab edir ki, Minsk Qrupunun "Xalqı sülhə hazırlayın" məsələsinin ortalığa atması xalqı təslimçi sülhə razı salmağa çalışmaq deməkdir:** "Cəmiyyət isə buna etiraz edir. Son zamanlar cəmiyyətdə fəallaşmanın və narazılıqların müşahidə olunmasının başlıca səbəblərindən biri budur. Azərbaycan xalqı beynəlxalq güclər kimi çıxış edən qüvvələrin məkrli planlarından narahatdır".

**S.Əkbər onu da qeyd etdi ki, sülhə Ermənistan xalqını hazırlamaq lazımdır və məsələ konkret olaraq bu cür qoyulmalıdır:** "Torpaqlardan erməni qoşunları çəkilsə, Azərbaycan xalqı sülhə hazırdır. İşğal davam etdikcə bu, mümkün deyil. Ermənistan cəmiyyəti sülhə heç bir halda razı deyil. Onlar ərazi naminə statusa belə razı deyillər. Onlar ümumiyyətlə, Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarından kənardakı işğal etdikləri ərazilərin də qaytarılmasına qarşı çıxırlar. Ermənilər bu mövqedədirlər. Dağlıq Qarabağa ən yüksək status verilsə belə, ətraf rayonların heç birinin azad olunmasını istəmirlər. Yəni ermənilər hətta buna da hazır deyillər. Ona görə də Ermənistan xalqını sülhə hazırlamalıdırlar. Status-kvonun dəyişməsi isə mütləqdir. İndiyəqədərki status-kvonun bundan sonra qalması mümkünsüzdür. Ona görə də düşünürəm ki, Qarabağ münaqişəsi ətrafında gərginlik davam edəcək və artacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Köhnə vaxtların gül kimi qripi

**Samir SARI**

**Gələn xəbərlər gerçəkdən ürküdücüdür, qorxmamaq mümkün deyil. Necə qorxmayasan ki, Yunanıstanda 18, Gürcüstanda 20-dən artıq adam qripdən ölüb.**

İndi o qripin adını nə qoyursunuz, qoyun, istər "donuz qripi" olsun, istər "qaban qripi", yaxud da elmi adıyla A/H1N1. Bir şey ki, adamı öldürür, onun adı elə "ölüm qripi"dir.

Ölkəmizin baş epidemioloqu deyir ki, o qripdən bizdə də var, 16 adamda müşahidə olunub, amma şükür Gözəgörünməzin kəramətinə ki, hələ bizdə o qripdən ölən olmayıb.

Ya bizdəki həmin qrip deyil, ya da bizim immunitetimiz gürcülərin, yunanların immunitetindən güclüdür.

Hərgah bu saat kimsə desə ki, biz o qripdən sırf donuz əti yemədiyimizə görə ölmürük, təndir çörəyi və quzu kababının bərəkətinə and içməsə belə, inanmağa hazıram. İntəhası, o prizmadan yanaşsaq, gərək bizdə də "qoyun qripi" və ya "dana qripi" yayılaydı.

Ancaq immunitetimizin başqa xalqların immunitetindən güclü olması barədə optimist xəyallar qurmaq əbəsdir. Hətta tam əksinədir, biz başqa xalqlardan daha canıboş camaatıq. İnanmayan varsa, yolunu istənilən klinikadan salsın, hamısında xəstə adamların əlindən iynə atsan yerə düşməz.

Adamlar UZİ növbəsinə səhər yazılır, axşam gəlirlər, çünki növbələri o zaman çatır.

Ən şıdırğı alver bu saat apteklərdə gedir. İnsanlar dərmanı torba-torba, kilo-kilo alırlar. (Bir dəfə özümün də yeddi kilo dərman aldığım olub - aparıb evdə əl tərəzisində çəkmişdim).

Həkimlərin maaşı az olsa da, maşallah, hamıdan çox qazanır, hamıdan yaxşı maşın sürür, yaxşı evlərdə yaşayırlar. Çünki müştəriləri çoxdur, göstərdikləri xidmət isə lazımlı və bahalıdır.

Yəni deməyim odur ki, biz xəstəliyə meylli camaat olduğumuzdan öz ölkəmizin və qonşu ölkələrin həkimlərini, necə lazımdır, dolandırırıq (sözün yaxşı mənasında dolandırırıq, Anadolu türklərinin təbirincə desək, həkimlərin bizi "dolandırması" faktları da az deyil).

Ən pisi odur ki, dünənə qədər biz qripi xəstəlik saymırdıq. Allah tərəfi, köhnə vaxtların qripi də gül kimi idi. Öldürücü deyildi. Biz də qripli-qripli işə gəlir, qonaqlığa gedir, səfərə çıxır, ictimai nəqliyyata minir, yüz yerə baş çəkirdik - həkim yanına getməkdən başqa. Hətta belə bir inancımız vardı ki, qrip tutmuş adam yatanda ağırlaşır, həmişə ayaq üstə olmaq, açıq havada gəzmək lazımdır. Dava-dərmana isə ehtiyac yoxdur. Bu xüsusda bir zarafat da vardı: "Qripi müalicə eləsən, yeddi günə sağalarsan, eləməsən - bir həftəyə".

Ancaq son bir neçə ildir ki, qrip tutanlar işə gələndə kollektiv üzvləri üzünü turşudur, bir az məzəmmətedici, bir az da amiranə tərzdə deyirlər: "Qardaş, bu vəziyyətdə işə gələrlərmi, get, dincəl, mürəbbəli çay iç".

Bu əslində bu deməkdir: "Rəhmətliyin oğlu, niyə işə gəlib bizi də yoluxdurursan, rədd ol get, evində asqır, öskür dəə, gərək bizi də becərəsən?"

Əgər xəstə adam qanıb-başa düşəndirsə, deyir, düz deyirsiniz, gedim, evdə bir gün yatım. Və çıxıb gedir.

Yox, əgər adam gönüqalındırsa, deyir, mənə hessad olmaz. Hətta özündən cəfakeşlik, fədakarlıq mücəssəməsi düzəldir, guya bu, işini canından da çox istəyir, qripə dözərək işləyəcək.

Nəticədə bir-iki gündən sonra iş yerində xəstələnənlərin sayı artır, lap axırda hamı xəstələnir. Hər kəs də bilir ki, bütün kollektivə bu cəfanı yaşadan adam o "cəfakeş" yaramazdır. Üzünə deməsələr də, dalınca söyürlər.

Bu baxımdan, məndən sizə əmanət, görsəniz ki, qrip tutmusunuz, bir-iki gün işə getməyin. Buna görə heç kəs, o cümlədən müdiriyyət sizdən inciməyəcək və sizi incitməyəcək. Hamı sizdən razı qalacaq. Nəticədə bir kollektiv epidemiyadan qurtulacaq.

Budur, bu adi həqiqəti başa düşənlər çoxalıb artıq, ağız-burunlarına qalpaq vurub gəzirlər. Əvvəllər ağ qalpaqlar dəb idi, indi qarası dəbdir. Bəziləri elə qələmə verirlər ki, guya onlar bunu forslarından edirlər. Elə deyil. O qalpağı bu ölkədə dəbə çevirən xaric-filan görmüş gənclər oldu. 10 ildir Cənubi Koreya, Yaponiya gəncləri ağız-burunlarını bağlayıb gəzirlər. Bir şey bilirlər ki, elə edirlər.

**Gəlin biz də elə edək. Bir asqıraqlıq canımız var.**

# Ölkədə donuz qripi var: bəs kimlər risk altındadır?

## Baş epidemioloq A/H1N1 virusuna yoluxan 16 nəfərin tam sağlam vəziyyətdə olduğunu açıqladı; ÜST-nin koordinatoru "hər deyilən sözə" inanmamağa çağırdı

**Hazırda Azərbaycanda A/H1N1 virusu var, amma bu, yeni virus deyil və bu virus artıq donuz qripi də adlandırılmır. Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan üzrə ofisinin rəhbəri Hande Harmancı deyib.**

Onun sözlərinə görə, Azərbaycanda da müşahidə edilən virus Avropada, Gürcüstanda müşahidə edilən virusdur: "Amma A/H1N1 artıq adi mövsümi qrip hesab edilir. Hazırda mövsümi qrip həm A/H3N2, həm də A/H1N1 virusları yaradır.

Gürcüstanda isə hazırda A/H1N1 virusu geniş yayılır, amma bu virus 10 ildir ki, dünyada yayılan eyni virusdur və ötən ilki viruslardan fərqlənmir. Virusun dəyişməsi daha təhlükəlidir".

Ofis rəhbəri bildirib ki, donuz qripi donuzdan insana keçdikcə və insandan insana keçdikcə buna artıq mövsümi qrip deyilir: "Dünyada sonuncu dəfə 2009-cu ildə son pandemiya olub. Həmin zaman yeni virus yaranaraq insanlara keçmişdi. Son pandemiyanı yaradan A/H1N1 olub. Hər il müşahidə edilən mövsümi qripi A/H1N1 və H3N2 virusları törədir. Hər il olduğu kimi, dünyada builki mövsümdə də bu virus var. Avropada, Gürcüstanda və Azərbaycanda adi mövsümi qrip var".

H.Harmancı deyib ki, Azərbaycanda A/H1N1 müşahidə edilməsi təşvişə səbəb olacaq durum deyil. ÜST rəsmisi viruslardan qorunmaq üçün gigiyenik qaydalara əməl edilməsini vacib sayıb.

### 65 yaşdan yuxarı insanlar, 5 yaşdan aşağı uşaqlar...

"Qripdən ən yaxşı müdafiə yüksək risk altında hesab edilən qruplar arasında peyvəndin aparılmasıdır". Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan ofisi ötən gün yaydığı ikinci açıqlamada bəyan edib.

Bildirilir ki, yüksək risk altında hesab edilən qruplara 65 yaşdan yuxarı olan insanlar, 5 yaşdan aşağı olan uşaqlar, hamiləliyin hər hansı bir mərhələsində olan hamilə qadınlar, xroniki xəstəlikləri olan şəxslər, səhiyyə işçiləri daxildirlər: "Qripin daha çox yayılmasının qarşısını almaq üçün fərdi qoruyucu tədbirlərdən istifadə edərək özümüzü qorumaqdır. Bu tədbirlər əlləri müntəzəm olaraq sabunla yumaq, öskürən və ya asqıran zaman ağız-burun nahiyəsini dəsmalla örtmək, ilkin mərhələdə, özünü yaxşı hiss etmədikdə, izolyasiya olmaq, xəstə insanlarla sıx əlaqədə olmamaq, göz, burun və ya ağıza toxunmaqdan qaçmaqdır".

Səhiyyə Nazirliyinin baş epidemioloqu İbadulla Ağayev isə deyib ki, kütləvi durum müşahidə edilərsə, buna qarşı mübarizə aparmaq üçün bütün tədbirlər var.

Səhiyyə Nazirliyinin məlumatları gizlətmədiyini deyən baş epidemioloq şayiələrin yayılmasına yol verilməməsini istəyib.

İ.Ağayev əlavə edib ki, Azərbaycanda A/H1N1 virusu aşkarlanmış 16 nəfərin heç biri xəstəxanaya yerləşdirilməyib, onların hamısı sağlam vəziyyətdədirlər. Onun sözlərinə görə, 16 nəfərdə A/H1N1 virusunun olması Səhiyyə Nazirliyinin Taun Əleyhinə Stansiyasında, eləcə də ÜST tərəfindən təsdiqlənib.

### Ağız maskası istifadə olunmalı, əllər tez-tez yuyulmalı, bağçalar isə...

**Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan üzrə ofisinin proqram koordinatoru Cəvahir Süleymanova** isə bildirib ki, həkimə müraciət edən xəstələrə həkim tərəfindən birbaşa qrip diaqnozunun qoyulması düzgün deyil:

"Qrip virusu yalnız laborator şəraitdə təsdiqlənir. Yalnız laboratoriyada aparılmış müayinələrdən sonra xəstəyə qrip diaqnozu qoyula bilər. Qripin diaqnozunu qoymaq hər bir laboratoriyada aparılmır. Azərbaycanda bunun üçün cəmi bir laboratoriya var. Çünki həmin bu analizlərin aparılması üçün xüsusi test sistemləri lazımdır. Onu təsdiqləmək yalnız Bakıda yerləşən həmin laboratoriyada mümkündür. Kimdəsə soyuqdəymə, qızdırma, asqırma, öskürmə varsa, ona qrip diaqnozu qoymaq yanlışdır. İnsanlar hər deyilən sözə inanmasınlar".



**Pediatr Vaqif Qarayev** feysbukda yazıb ki, donuz qripindən xüsusi qorunma yolları yoxdur: "Virus aşkar olunubsa, əhalidə xof yaratmaq da mənasızdır. Çünki panikaya düşmüş insanların tibb müəssisələrinə axını başlaya bilər. Nəticədə hamı bir-birini yoluxduracaq. İnsanların sıx olduğu məkanlara getməmək məsləhətdir. Qoruyucu maskalardan istifadə olunmalıdır. Əllər tez-tez yuyulmalıdır, yüksək qızdırma zamanı qızdırmasalıcılardan (antibiotiklərdən yox) istifadə etmək olar".

V.Qarayevin sözlərinə görə, çoxlu maye qəbul etmək lazımdır: "Meyvə-tərəvəzdən bol-bol istifadə edin. Davamlı yüksək qızdırmada özünümüalicə yolverilməzdir. Həkimə müraciət etmək lazımdır. Bağça və məktəblərdə nəzarət gücləndirilməlidir.

Xəstə uşaqlar bağçaya və məktəbə getməməlidir, yaşlı insanlar və hamilələr daha diqqətli olmalıdır. Vaxtında həkimə müraciət etməlidir".

**Tibb elmləri doktoru Adil Qeybulla** "Yeni Müsavat"a bildirdi ki, bu virusun çoxsaylı ştamları var: "Gürcüstanda varsa, bizə də gəlməsi normaldır.

Profilaktik tədbir görülməlidir. Bu, A qrip virusunun bir ştamıdır. Ola bilər ki, 2009-cu illə müqayisədə bir az fərqli olsun. 2009-da çoxlu tələfat olmuşdu. İlk növbədə karantin tədbir görülməlidir, əhaliyə təbliğat aparmalıdır. Bu virusa yoluxanların hamısı pnevmaniyadan ölüb. Çünki infeksiyalar fəallaşır, iltihab yaradır. Ona görə qrip olan insanlar yataq rejiminə keçməlidir, həkim nəzarətində olmalıdır, çoxlu maye qəbul etməlidir, qoruyucu maska taxmaq lazımdır".

Bu arada axar.az yazıb ki, bir neçə gün öncə dünyasını dəyişən idmançı, dünya çempionu Xamis Məmmədovun ölüm xəbəri yayılarkən onun qripdən dünyasını dəyişdiyi deyilmişdi.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən isə bildirilib ki, idmançı 24.01.2019-cu il tarixində Sabunçu rayon 3 saylı şəhər xəstəxanasına kəskin pnevmoniya diaqnozu ilə ağır vəziyyətdə gətirilib:

"Aparılan bütün reanimasiyon tədbirlərə baxmayaraq, Xamis Məmmədov 26.01.2019-cu il tarixində dünyasını dəyişib.

Yaxınları meyitin tibbi ekspertizaya göndərilməsinə qəti etiraz ediblər. Bu səbəbdən yalnız ilkin rəyə əsasən, xəstəyə ağciyərlərin tromboemboliyası diaqnozu qoyulub".

**❑ Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019

# "İstiqlalçı deputat"dan müxalifətin yeni hərəkatına ittiham

## Hacıbaba Əzimov: "Əslində Azərbaycanı dünyada biabır edən bir hərəkətin qarşısını aldıq"

**"İstiqlalçı deputat", Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri Hacıbaba Əzimov yanvarın 26-da təsis konfransı keçirilən və 20-dən çox partiyanın təmsil olunduğu Azərbaycan Xalq Hərəkatının bir sıra addımlarını tənqid edən böyük müsahibə verib. "Hürriyyət"ə müsahibəsində H.Əzimov deyib ki, əslində yanvarın 26-da təsis konfransı olmayıb, 19-da Xalq Hərəkatı təsis olunub. 26-da keçirilən tədbir sadəcə təntənəli toplantı idi.**



Hacıbaba Əzimov

H.Əzimov bildirib ki, Hərəkatda çox şeylərin düzgün təhlil edilmədiyindən narazıdır: "Dekabrın 25-də dəyirmi masa keçirildi. Bu dəyirmi masanın da keçirilməsinə heç bir ehtiyac yox idi. Bu dəyirmi masada bir qondarma iddia qaldırmışdılar. Amma bu, qəsdən müəyyən dairələrin ortaya atdığı bir tələ idi. Əvvəla, həmin dəyirmi masa deyilən toplantıda kimlər iştirak edirdi, elə həmin partiyalar sonradan Hərəkatın təsisçisi oldular. İkincisi də o iclasa həmin partiyalardan olan bəzi rayon təşkilatlarının nümayəndələri və bir də hakimiyyətə yaxın olan adamlar gəlmişdilər. Yer az olduğunda görə onların da əksəriyyəti çöldə qaldı, içəridə oturmaq və danışmaq imkanları olmadı. Bu, bir tələ idi, qurulmuşdu ki, Hərəkat baş tutmasın. O iclasda guya, qərara alındı ki, İşçi Qrupu yaradılsın. Ona görə, "guya" deyirəm ki, orada heç bir səsvermə keçirilməyib, sadəcə biri deyir, belə olsun, o bir də deyir, "hə" olsun, bununla da dağılışırlar. Yəni belə bir ciddi məsələyə çox bəsit, gülünc yanaşma oldu".

**VAMBP sədri qeyd edib ki, hərəkatda əksəriyyəti qeydiyyatda olan partiyalardır**: "Rəsmi dövlət qeydiyyatında olan siyasi partiyadırlar. İndi heç bir səlahiyyəti, mandatı olmayan kimlərsə, qeyri-müəyyən adamlar gəlib partiyalara mandat verir ki, sizi İşçi Qrupu kimi təyin edirik, gedin, fikirləşin. Bu, çox gülünc bir söhbət idi. İkinci söhbət isə çox qorxulu idi. Əslində, Azərbaycanı dünyada biabır edən bir hərəkətdir. Dəyirmi masa deyilən o qondarma iclasda mən iştirak etmədim. Amma iştirak edənlərdən bəziləri belə qələmə verdilər ki, guya, onlar bizə İşçi Qrupu mandatı verib və bizim heç bir səlahiyyətimiz yoxdur ki, hər hansı bir quruma, o cümlədən Xalq Hərəkatını təsis edək. Çünki dəyirmi masa bizə bu mandatı verməyib. Bu da böyük bir gülünc söhbətdir. Mən siyasi elmlər üzrə elmlər doktoruyam. 1981-ci ildən siyasi hərəkatların tarixi, siyasi partiyaların yaranması ilə bağlı həm tədqiq, həm də tədris etmişəm. Mən yanvarın 5-də keçirilən iclasda da məcbur oldum, bunların yadına saldım ki, a bala, mən bütün dünyada, o cümlədən də Azərbaycanda bu proseslərin necə getdiyini yaxşı bilirəm, bunları belə edin. O ola bilməz ki, bizə kimsə mandat verib ki, ancaq ümumi söhbətlər edək, əsas məsələ, yəni Hərəkatın təsis olunması, idarə heyətinin seçilməsi hansısa müəmmalı bir iclasa qalmalıdır. Həmin adamlar təklif etdi ki, bu iclas yanvarın 26-da olmalıdır. Çünki ora adamlar gəlməlidir, gələn adamların adlarını, soyadlarını yazdırıb, qeydiyyata düşürsə, onlara mandat verilir və onların hüquqi olur ki, hansı partiyalardan ibarət təsisçilər və idarə heyəti seçiləcək, həmin iclasda onları müəyyən etməlidir. Mən sizə deyim ki, bu təklif tarixdə görünməyən çox eybəcər, tragikomik bir şou yaratmaq demək idi. Çünki siyasi partiya sədrlərini heç bir səlahiyyəti, mandatı olmayan hansısa müəmmalı bir iclas, hansısa bir quruma seçə bilməz. Hansısa məchul, kimliyi, səlahiyyəti olmayan adamların gəlib dövlət qeydiyyatı, mandatı olan partiyaları və onların sədrlərini Hərəkatın idarə heyətinə seçməsi çox gülünc, tarixdə görünməmiş biabırçılıq idi. Bu, təkcə partiyaları yox, bütün Azərbaycanı dünyada biabır edən bir təklif idi. Amma biz o təklifin, şounun qabağını aldıq. Onu deyim ki, burada mənim də xüsusi rolum olub.

Siz yanvarın 5-də, 12-də olan iclaslara baxın. Orada görəcəksiniz ki, kimlər oyun oynayırdı, kimlər o təklifləri verirdi".

❑ **E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Hüseyn Abdullayev ölüm aclığına başlayıb

## Penitensiar Xidmət onlara belə bir məlumat daxil olmadığını bildirib, sabiq deputatın anası isə prezidentdən oğlunun əfvini istədi

**2018-ci ilin 22 aprelində Türkiyədə saxlanılaraq Azərbaycana təhvil verilən sabiq deputat Hüseyn Abdullayev ölüm aclığına başlayıb. Bu haqda "Yeni Müsavat"a daxil olan xəbərdə deyilir ki, Hüseyn Abdullayev beynəlxalq təşkilatlardan Azərbaycan hökumətinə daxil olan sorğulara doğru cavabların verilmədiyini iddia edir və buna etiraz olaraq aclıq aksiyası keçirir.**

"Yeni Müsavat"ın əməkdaşı məsələ ilə bağlı Penitensiar Xidmətin Mətbuat Xidmətinin rəhbəri Mehman Sadıqovla əlaqə saxlayıb. Xidmət rəhbəri təmsil etdiyi quruma belə bir məlumat daxil olmadığını bildirib.

Hüseyn Abdullayevin vəkili Ruhid Əkbərov müvəkkilinin aclıq elan etməsi ilə bağlı sualı "heç bir məlumat verə bilməyəcəyəm", deyə, cavablandırıb.

Bu arada Hüseyn Abdullayevlə gizli əlaqəsi olan Azərbaycanın bəzi vəzifəli məmur və deputatları ilə bağlı araşdırmalar aparılması haqda da iddialar səngimir. Hüseyn Abdullayev həbs ediləndən sonra belə iddia yayılmışdı ki, o, Azərbaycandan mühacirət edəndən sonra ən müxtəlif adlarla onun yanına gedib-gələn vəzifə sahibləri, onların yaxınları, hətta övladları olub. Onların vaxtilə əmlak alqı-satqısı üzərindən münasibətlərinin yarandığı, hətta parlamentdəki məlum davadan sonra deputatlardan birinin (indi abiq) Hüseyn Abdullayevi birbaşa müdafiə etdiyi haqda da məlumatlar vardı.

Hüseyn Abdullayev Azərbaycanda bundan əvvəl də həbsdə olmuşdu. Deputat Fəzail Ağamalı ilə parlamentdə əlbəyaxa davasına görə tutulan Hüseyn Abdullayev bir müddət cəza çəkdikdən sonra anasının israrlı xahişləri əsasında azadlığa buraxılmışdı. Hazırda gerçəkləşdirilən istintaq çərçivəsində həmin vaxt baş verənlərin də daha detallı şəkildə araşdırılması xəbəri bizə çatıb. Mümkündür ki, o dövrdə parlamentdə Hüseyn Abdullayevi bu və ya başqa şəkildə müdafiə etmiş deputatlar da məhşər ayağına çəkilsinlər.



Hüseyn Abdullayev

Hüseyn Abdullayev hazırda Bakı İstintaq Təcridxanasında saxlanılır. Ötənlərdə onun vəkili Ruhid Əkbərov "Yeni Müsavat"a açıqlamalarında demişdi ki, müvəkkilinin şikayəti yoxdur. Sabiq deputatın qanunvericiliyə uyğun olaraq bütün hüquqları qorunur, vəkili Hüseyn Abdullayevlə mütəmadi olaraq görüşür.

Qeyd edək ki, Hüseyn Abdullayev aprelin 22-də Türkiyədə yaxalanaraq Azərbaycana gətirilib. Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətləri onun həbsi ilə bağlı birgə məlumat yayıb. Vergilər Nazirliyi tərəfindən aparılmış səyyar vergi yoxlaması nəticəsində "Araz İNC" MMC-də 1 milyon 436 min manat məbləğində vəsaiti dövlət büdcəsinə ödəməməsi faktı üzrə 7 iyun 2013-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddəsi ilə cinayət işi başlanıb. 3 oktyabr 2016-cı il tarixdə H.Abdullayevin ümumilikdə 1 milyon 810 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırması və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq almadan tikinti-quraşdırma işlərini həyata keçirərək 966 min manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr müəyyən edildiyindən ona Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci maddələri ilə yenidən ittiham elan edilməsi barədə qərar çıxarılmışdır. Bundan başqa, ayrı-ayrı vətəndaşların Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş müraciətləri əsasında 14 fevral 2018-ci il tarixdə başlanmış cinayət işi üzrə H.Abdullayevin 2006-cı ildən 2018-ci ilədək olan müddət ərzində faktiki nəzarət etdiyi "Araz-İnşaat" ASC-də onun tapşırığına əsasən müəssisənin idarə olunmasını həyata keçirən Babayev Namiq İsmixan oğlu və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında cəmiyyətə məxsus obyektləri müxtəlif vaxtlarda ayrı-ayrı şirkətlərə icarəyə verərək ümumilikdə 1 milyon 374 min manat məbləğində gəlirlərin cəmiyyətin kommunal xidmət və sair xərclərinin ödənilməsinə sərf olunmasına dair digər səhmdarlara yalan məlumat verməklə 13 min 373 manat məbləğində dividentləri vahid qəsdlə ələ keçirib zərərçəkmiş şəxslərə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etməsinə şübhələr müəyyən edilib. Eləcə də H.Abdullayevin dəfələrlə N.Babayev vasitəsilə, daha sonra isə Almaniyadan istifadəsində olan telefondan "Autist Uşaqların Reablitasiyasına Kömək" İctimai Birliyinin sədri Elnur Məmmədova zəng edərək onun və ailə üzvlərinin ünvanına nalayiq ifadələr işlədib tələblərinə əməl etməyəcəyi halda onları məhv edəcəyi ilə hədələyərək icarə müqaviləsi şərtlərinə görə hər ay ödəməli olduğu 3 min manat icarə haqqı əvəzinə onun nümayəndələrinə 6 min manat pul ödəməsini hədə-qorxu ilə tələb etməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, Cinayət Məcəlləsinin 178.2.1 (dələduzluq), 178.2.2, 178.2.4, 182.2.1 (hədə-qorxu ilə tələb etmə), 182.2.2 və 182.2.4-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə həmin maddələrdə nəzərdə tutulmuş ittiham elan edilib.

Ötən gün H.Abdullayevin anası Zeynəb Abdullayeva isə Prezident İlham Əliyevə müraciət edib. "Qafqazinfo"nun yaydığı xəbərə görə, həmin müraciətdə Z. Abdullayeva ahıl yaşda olduğunu və oğlunun səhhətindəki problemləri nəzərə alaraq onun barəsində humanizm və mərhəmət nümayiş etdirərək, bağışlanmasını dövlət başçısından xahiş edib.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019

**Müxalifət düşərgəsi 2019-cu ilə ötən dövrlə müqayisədə aktiv başlayıb. Bir tərəfdə Milli Şura mitinq keçirir, digər tərəfdə Azərbaycan Xalq Hərəkatı elan olunur. Həmçinin, Qarabağ Komitəsi çağırışlar edir, mitinq tələbi ilə meriyaya üz tutur, sosial şəbəkələrdə müəyyən canlanma müşahidə edilir.**

# "Müxalifətdə proseslər dinamikliyə keçəcək..."

## İqbal Ağazadə və Sərdar Cəlaloğlu düşərgənin aktiv fazaya keçməsinin detallarını açıqladı


İqbal Ağazadə


Sərdar Cəlaloğlu

Bu hərəkətliliyə daxili və xarici faktorların təsir etdiyini söyləmək mümkündür. Təbii ki, fəallaşan ənənəvi müxalif təşkilatlardır. Azərbaycan iqtidarına və cəmiyyətinə tanış simalardır. Vaxtilə yeni müxalifət olan NİDA vətəndaş hərəkatı, feysbuk gəncliyi indi daha yoxdur, REAL partiyası isə o bazisə malik deyil. Bununla belə, ənənəvi siyasi güclər bu il aktiv fazada fəaliyyət göstərməkdədirlər.

Bəzi siyasi analitiklər müxalif kəsimin gücünü artırmasını qarşıda keçirilməsi gözlənilən növbədənkənar parlament seçkiləri ilə izah edirlər.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** "Yeni Müsavat"a müxalifət düşərgəsində bir prosesin getdiyini açıqladı. Onun sözlərinə görə, bu canlanma təkcə müxalifətin çabalarından asılı deyil: "Eyni zamanda Cənubi Qafqazda gedən proseslərin fərqli inkişafı, Ermənistandakı seçkilər Azərbaycan müxalifətinin dinamikasına təsir edir. Mən hələ 2014-cü ildə "Yeni Müsavat" qəzetinə demişdim ki, 2018-ci ilin sonu və 2019-cu ilin əvvəlində müxalifətdə proseslər dinamikliyə keçəcək. Ona görə belə şəraitdə müxalif təşkilatlar etirazçı və narazı elektoratın səfərbər olunması üçün bəzi çabalar etməyə məhkumdurlar".

**İ.Ağazadə müxalifətdə aktivliyin daxili faktorlarla əlaqəli olmasını da istisna etmir**: "Azərbaycandakı sosial-iqtisadi vəziyyət, hakimiyyətdaxili məsələlər, köhnə kadrlardan imtina edilməsi və yenilərinin önə çəkilməsi də öz təsirini göstərməyə bilməz".

**Ümid sədri bir yanda AXH, bir yanda Qarabağ Komitəsi, digər tərəfdə MŞ-nın olmasını müxalifətin dağınıqlığı hesab etmir**: "Müxalifətin bir rəngi yoxdur. Buna belə yanaşa bilmərik. Ona görə dağınıqlığa təbii baxmaq lazımdır. Hesab edirsiz ki, prosesi biri aparacaq, mən elə düşünmürəm. Müxalifətin bir qismi Qarabağ probleminə, biri demokratiya məsələsinə, biri əhalinin sosial problemlərinə görə narazı elektoratı fəallaşdırır, təşkilatlandırır".

"Milli Şura özünü müxalifətin mərkəzi və avanqardı hesab edir" fikrinə isə Ağazadə belə reaksiya verdi: "Milli Şuranın işi etirazçı təbəqəni toplamaqdır. İqbal Ağazadənin missiyası isə demokratik seçki olacaqsa, iqtidara gəlməkdir".

**Azərbaycan Demokrat Partiyası sədri Sərdar Cəlaloğlu** isə hesab edir ki, müxalifətin aktivləşməsi ölkədəki sosial-iqtisadi şəraitlə uyğunluq təşkil edir. ADP liderinin fikrincə, müxalifətin fəallaşmasında hər hansı regional və ya xarici faktor yoxdur: "Biz daha çox keçmiş sovet respublikalarında hadisələr olanda sinxron təsirlər müşahidə edirik. Bu regionda indi nə baş verir ki, müxalifətə təsir eləsin? Müxalifətdə müxtəlif bloklar var. Hərə fərqli problemlə bağlı mübarizə aparır. Qarabağ Komitəsinin vəzifə-məqsədləri ilə Xalq Hərəkatının məqsədləri üst-üstə düşməyə bilər. Bu, normal haldır".

**S.Cəlaloğlu ənənəvi müxalifət sözünü qətiyyən qəbul eləmir:** "Hərə özündən bir əmmaməlik edir, termin tapır. Müxalifət ənənəvi ola bilməz. Dünən Əli İnsanov iqtidar idi, bu gün müxalifətdir. Neçə belə adamlar var ki, dünən iqtidar, bu gün müxalifətdədir. Və yaxud bunun əksini də söyləyə bilərik. Ənənəvi müxalifət ola bilməz, revanşist və loyal müxalifətlər olur. Mandela 40 il həbsdə yatdı, çıxıb prezident oldu. Qandi 60-70 il savaş verib. Lenin 19-cu əsrdən mübarizəyə başladı, 30 ilə hakimiyyətə gəldi. Eləcə də Xomeyni 30 ilə hakimiyyətə gəldi. Bunlara biz ənənəvi müxalifət deməliydik? Xarici qüvvələrin kimlərisə iqtidara gətirməsindən söhbət getmir. Bizim kimi bu şəraitdə hakimiyyətə gəlmək zaman tələb edir. Üstəlik, bizim hansı gücümüz, hüququmuz var ki, müxalifətə yeni gələn qüvvəni qoymuruq? Bunu deyənlərin məqsədi təcrübəli liderləri xalqdan uzaqlaşdırmaqdır. İstəyirlər ki, xalq təcrübəsiz liderin arxasınca getsin, belədə toplumu idarə etmək asan olsun".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Qarabağ Komitəsi mitinq üçün meriyaya müraciət göndərdi

## Taleh Əliyev: "Mitinqə hazırlıq məsələsi..."
## Əvəz Zeynallı: "Mitinq yarışmasına çıxmaq doğru deyil"

**Qarabağ Komitəsi 16 fevrala "Qarabağa azadlıq" şüarı ilə təyin etdiyi mitinqə icazə verilməsi üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət ünvanlayıb. Komitənin həftənin üçüncü günü keçirilən iclasında bu barədə qərar qəbul edilib.**


Taleh Əliyev


Əvəz Zeynallı

Hazırda mitinqlə bağlı ən çox sual doğuran məsələlərdən biri icazə verilib-verilməyəcəyi barədədir. Bu da səbəbsiz deyil. Belə ki, QK-nın indiyə qədər iki mitinq müraciətinə mənfi cavab verilib. Bundan əlavə, Müsavat Partiyasının 12, Milli Şuranın (MŞ) isə 26 yanvar mitinqinə icazə verilməyib. Amma MŞ-nın 19 yanvar mitinqinə icazə verilməsi azacıq da olsa ümidləri artırır.

Onu da qeyd edək ki, Milli Şuranın 16 fevraldan öncə mitinq keçirmək niyyətində olduğu barədə iddialar səslənir. MŞ-nın gələn həftə icazə üçün BŞİH-ə müraciət edəcəyi deyilir. Bunun birbaşa QK-nın fəaliyyətini və mitinq qərarını kölgədə qoymaq niyyəti daşıdığı ehtimal edilir.

**QK-nın dönəm sədri, Ümid Partiyasının sədr müavini Taleh Əliyev** "Yeni Müsavat"a bunları dedi: "Qarabağ Komitəsinin bu həftə keçirilən növbəti toplantısında təşkilati məsələlər, 16 fevral mitinqinin müzakirəsi, ictimai dinləmələrin keçirilməsi və cari məsələlər müzakirə edildi. Eyni zamanda, mitinqə hazırlıq məsələsi müzakirə olundu. Akif Nağının, Pənah Hüseynin, Sahib Kərimlinin, Tural Abbaslının, Əvəz Zeynallının və mənim imzalarımla Bakı Şəhər İcra Hakimiyyətinə 16 fevral mitinqi ilə bağlı müraciət olundu. Qarabağ Komitəsi eyni zamanda Xocalı qatili olan erməni cəlladına Gürcüstanda qoyulan abidəyə etirazını bildirdi və belə bir fikir ifadə olundu ki, təkcə Gürcüstanda yox, bütün dünyada qatillərə və insanlıq düşmənlərinə abidə qoyulmamalıdır. Qərara gəlindi ki, məsələyə etiraz edib düşüncələrimizi çatdırmaq üçün Qarabağ Komitəsi Gürcüstan səfirliyinə müraciət edib görüş istəsin".

**QK-nın mətbuat xidmətinin rəhbəri Əvəz Zeynallı** mitinqə icazə verilməyəcəyi təqdirdə hansı addımları atacaqlarını açıqladı: "Biz hələ ki mitinqə icazəni gözləyirik. Qərar olmadan nə edəcəyimizi açıqlamırıq. Əminəm ki, mitinqə icazə veriləcək. Biz "Məhsul stadionu"na 30 mindən çox insanın gələcəyini düşünürük. Müraciətimizə mənfi cavab verilərsə, komitə toplaşıb qərarını verəcək. Milli Şuranın 19 yanvar mitinqinə icazə veriləndə demişdim ki, hakimiyyətin belə addımlarına ciddi fikir verməmək lazımdır, yəni bir quruma mitinq keçirmək üçün icazə verməsinə, digərinə isə yox deməsinə. Hakimiyyət iki dəfə Qarabağ Komitəsinə, bir dəfə Müsavat Partiyasına mənfi cavab verib. Düşünürəm ki, Milli Şuranın mitinqinə hakimiyyət icazə verməklə müxalifət daxilində qalmaqal yaratmaq istədi. İstənilən halda, düşünürəm ki, hakimiyyət 16 fevral mitinqinə icazə verə bilər. İqtidarın olduğu kimi, demokratik düşərgənin də planlaşdırması olmalıdır. Hökumət kimə icazə verirsə versin, əsası mitinqlər keçirilsin. Unutmaq olmaz ki, bizim mitinq Qarabağla bağlıdır, şüarlarımız da fərqlidir".

**Ə.Zeynallı MŞ-nın mitinq planının olması barədə gəzən söz-söhbətlərə də toxundu**: "Milli Şura müraciət etsə belə, istənilən halda onlarla bizim aramızda tələblərdə fərqlər var. Bu baxımdan hesab edirəm ki, hakimiyyət Milli Şuraya icazə verməyib, Qarabağ Komitəsinə icazə verə bilər. Eləcə də, bunun əksi da ola bilər. Onu qeyd edim ki, mitinq qərarını bizim verdiyimiz vaxt 16 fevrala qədər heç bir aksiya yox idi. Əslində, biz 15-20 yanvar arası Qarabağ Komitəsinin mitinqlərini keçirməyi planlaşdırdıq. Sadəcə olaraq, Müsavat və Milli Şuranın ard-ardakı mitinq qərarları bizi fikrimizdən daşındırdı. Düşündük ki, mitinq yarışmasına çıxmaq doğru deyil. Biz Milli Şuranın mitinqlərinin davamlı olacağını düşünüb, 16 fevrala aksiya təyin etdik. Siyasi nəzakət gərəyi ilə Milli Şura bunları nəzərə almalıdır. Əgər nəzərə almırlarsa, 16 fevraldan öncəyə mitinq keçirməyi planlaşdırırlarsa, Qarabağ Komitəsini heçə sayırlarsa, o zaman Milli Şuraya ancaq uğur diləyə bilərik. Onların mitinqinə icazə verilsə, həm dəstəkləyəcəm, həm də iştirak edəcəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Əhməd Oruca qarşı ittiham: "Apim" imzası ilə Elçibəyə qarşı məqalələr yazıb"

## Partiya sədri: "Bu gün də o fikirdəyəm, bağlı qapılar arxasında iqtidarı təhvil verməli deyildik"

**Bu günlərdə musavat.com-un canlı yayımında qonaq olan Azadlıq partiyasının sədri Əhməd Orucla bağlı Ukraynada yaşayan Arif Aydın maraqlı ittiham irəli sürmüşdü. O, canlı yayımın şərh bölümündə qeyd edib ki, Ə.Oruc vaxtilə eks-prezident Əbülfəz Elçibəy əleyhinə "Apim" imzası ilə məqalələrlə çıxış edib, tənqidi yazılar verib.**

Partiya sədri "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, "Apim" onun imzası olmayıb: "Bu, Azadlıq Partiyasının İnformasiya Mərkəzinin abreviaturası idi. Təhlil yazılarında bu imza qoyulurdu və Elçibəylə bağlı tənqid fikirlər də ola bilərdi. Burada qeyri-adi heç nə yoxdur. Çünki 1994-cü ildə AXC-də bizə qarşı barışmaz mövqe vardı.

Mən o zaman AXC Ali Məclis üzvü idim. Biz hakimiyyətin təhvil verilməsini qəbul etmirdik. Bununla bağlı "Azadlıq" qəzetində əleyhimizə yazılar gedib. Qənimət Zahid Elçibəy adından yalandan mənə qarşı yazılar vermişdi. Bu gün də o fikirdəyəm, bağlı qapılar arxasında iqtidarı təhvil verməli deyildik və müzakirələr aparıb addımlar atmaq lazım idi. Ona görə də Arif Aydına o dövrün tarixi ilə bağlı istədiyi suallara cavab verməyə, dediklərimizin altında daha qalın imza atmağa hazıram".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Dağlıq Qarabağ problemi ilı bağlı ilin ilk ayında münaqişə tərəfləri arasında ən yüksək səviyyədə ard-arda keçirilən bir neçə görüş sülhlə bağlı bəzi kövrək ümidlər yaradıb. Hərçənd, işğalçı Ermənistanda baş nazir Nikol Paşinyanın qatı əleyhdarları ortada heç bir anlaşmanın olmamasına rəğmən, onu az qala xəyanətdə suçlayır, "bir qarış torpaq belə qaytarılmamalıdır" deyə hay-küy qoparırlar. Bu hay-küyün "tozu" hələ də yatmayıb.**




Tofiq Zülfüqarov

# İrəvan sülhdən imtina edir? - erməni baş nazirdən riskli gediş

## Ermənistan rəhbərliyinin "ərazi əvəzinə sülh"dən imtinası müharibəni qaçılmaz edəcək; **Tofiq Zülfüqarov:** "Paşinyanın son bəyanatı konfliktin dinc həlli üçün heç bir şans qoymur..."

Ancaq məsələ ondadır ki, heç Nikol Paşinyanın özü də hələ indiyədək Qarabağ mövzusunda öz sələflərindən fərqli hansısa konstruktiv bəyanat, açıqlama verməyib. Onun son açıqlaması da istisna olmadı. Paşinyan deyib ki, Ermənistan hökuməti Qarabağ tənzimlənməsində "sülh əvəzinə ərazilər" formulunu müzakirə də etmir. Bunu o, guya keçmiş prezident Levon Ter-Petrosyanın siyasətini davam etdirdiyi və ərazilərin təhvil verilməsi məsələsini müzakirə etdiyi ilə bağlı sualı cavablandırarkən bildirib.

**Sitat**: "Biz "sülh əvəzinə ərazilər" formulunu müzakirə edə bilmərik. Hökumətimiz Qarabağ üzrə əvvəlki heç bir hökumətin aparmadığı siyasəti aparır və paralellər aparmaq *(keçmiş və hazırkı hakimiyyətlər arasında - red.)* tamamilə yanlışdır. Biz Əliyevlə danışdıq ki, nazirlər bu istiqamətdə işləyirlər, həmsədrlərlə birlikdə tövsiyələrini təqdim edəcəklər, biz də onları müzakirə edəcəyik".

**Erməni baş nazir onu da iddia edib ki, Davosda Əliyevlə danışıqlar olmayıb, qeyri-rəsmi ünsiyyət olub və bu zaman fikir mübadiləsi aparılıb.**

*****

Göründüyü kimi, Nikol Paşinyan, faktiki, onu tənqid edənlərdən pozitiv planda hansısa fərqli mövqe bildirməyib. Bu səbəbdən Azərbaycanın ona cavabı gecikməyib.

"Paşinyanın məntiqini anlamaq çətindir". Bunu Azərbaycan XİN-ndən Paşinyanın "Qarabağ məsələsində sülh əvəzinə ərazilərin qaytarılması imkanlarını müzakirə etməyəcək" kimi bəyanatını şərh edərkən bildirilib.

"Cənab Paşinyanın məntiqini anlamaq çətindir. Məlum olduğu kimi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin himayəsi altında aparılan danışıqların təməlində, məhz Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çaxırılması durur. Bu tələb BMT-nin Təhlükəsizlik Şurasının məlum 4 qətnaməlırində, eləcə də münaqişənin həlli ilə bağlı demək olar ki, bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə əks olunur. Belə olduğu təqdirdə sual meydana çıxır: cənab Paşinyanın bu mövqeyi onun danışıqlardan imtina etməsi deməkdirmi?", - deyə məlumatda qeyd olunub.

*****

**Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** hesab edir ki, Nikol Paşinyanın son bəyanatı Qarabağ konfliktinin siyasi, dinc yolla həlli üçün heç bir şans qoymur. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, rusdilli minval.az saytına müsahibəsində deyib.

"Həmin bəyanat ilk növbədə rəsmi Bakıya, sonra isə daxili auditoriyaya ünvanlanıb. Son vaxtlar N.Paşinyanın "Qarabağ klanı"na yaxın ola opponentləri dəfələrlə bəyan ediblər ki, Bakı ilə İrəvan arasında ciddi danışıqlar gedir və Dağlıq Qarabağ ətrafında bir neçə rayonun azad edilməsinə hazırlıq gedir. Və indi buna cavab olaraq, Paşinyan iddia edir ki, belə şey ola bilməz, ümumiyyətlə, təbiətdə belə mövzu mövcud deyil. Bununla da o, daxildəki siyasi xarakterli problemləri həll edir", - deyə eks-nazir bildirib.

**T.Zülfüqarovun sözlərinə görə, bu, çox ciddi bəyanatdır və danışıqların bərpasına yönəlik istənilən cəhdə faktiki şəkildə "stop" işarəsi qoyur:** "Bununla o, ATƏT-in Minsk Qrupunun həmsədrlərini tamamilə pis vəziyyətə qoyur - hansılar ki, cəmi bir həftə qabaq xalqları sülhə hazırlamağa başlamağın zəruriliyini bəyan edirdilər. İndi isə aydın deyil ki, hansı əsaslarda bu sülh əldə ediləcək. Əgər Paşinyanın dediyi əsasda olacaqsa, o zaman yüz faiz sülh olmayacaq. Biz bu gün artıq belə bir situasiyanı müşahidə edirik ki, erməni tərəfini danışıqlar prosesi maraqlandırmır. İkinci məqam: onu da görürük ki, həmsədrlər hansısa anlaşılmaz vəziyyətdədirlər və regionda real baş verənlərlə uzlaşmayan bəyanatlar verirlər".

*Paşinyan onu da deyib ki, erməni hökuməti Qarabağ üzrə əvvəlki heç bir hökumətin aparmadığı siyasəti aparır və paralellər aparmaq tamamilə yanlışdır. Bəs görəsən, aradakı "fərq" nədən ibarətdi?*

**Tofiq Zülfüqarov:** "Fərq yalnız bir şeydədir: nəyi ki, onun sələfləri gizlədirdilər, onu Paşinyan açıq deyir. Onun sələfləri manevr edir, vaxtı uzadırdılar. Paşinyan isə bütün bunlar haqda açıq danışdı və onun bəyanatını diqqətdən kənar saxlamaq, sadəcə, mümkün deyil".

*****

"Qarabağ üzrə danışıqlar prosesinin reanimasiyası gedir və Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyanın rəsmi görüşünə hazırlıq aparılır". Bunu isə erməni politoloq Aleksandr İsgəndəryan deyib.

"Bunun nə qədər uğurlu olub-olmadığını deyə bilmərəm. Görürük ki, müəyyən dar çevrədən kənara heç bir informasiya çıxmır. Bu o deməkdir ki, əslində proses gedir və o, birbaşa konfliktlə bağlıdır" - erməni siyasi təhlilçi deyib.

Lakin başqa bir erməni politoloq Anahit Şirinyan hesab edir ki, son zamanlar Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsi üzrə artan görüşlər tərəflər arasında qarşılıqlı güvən formalaşdırsa da, bunun yaxın gələcəkdə həll prosesinə təkan verəcəyi inandırıcı görünmür: "Fransada Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında keçirilmiş görüş həll prosesində yeni dönəmin başlanğıcı sayıla bilər. Davosda iki ölkə liderinin qeyri-rəsmi görüşü baş tutdu. Ayrıca, fevral ayında xarici işlər nazirlərinin növbəti görüşü gözlənilir. Bütün bunlar prosesin fəallaşmasından xəbər verir. Lakin düşünmürəm ki, bu təmaslar həll prosesinə ciddi şəkildə təkan verəcək. Bununla belə, fikrimcə, müzakirələr üçün daha əlverişli atmosfer yaranır".

**Onun sözlərinə görə, danışıqların sonrakı mərhələlərində fərqli təşkilatların, elm adamlarının, jurnalistlərin, mütəxəssislərin və iş adamlarının da iştirakı mümkün ola bilər (teleqaraf.com).** "Bəlkə də həmin mərhələlərdə üçüncü bir ölkənin vasitəçiliyə ilə Azərbaycan və Ermənistan arasında qarşılıqlı səfərlər də mümkün olsun. Bu baxımdan, qarşılıqlı etimadın formalaşdırılması məsələsinin mərhələli şəkildə həyata keçiriləcəyini düşünürəm. Başlanğıc üçün tərəflərin bu məsələlərə hansı formada baxacağına diqqət etmək, digər yandan isə yaranmış ehtimalları o qədər də şişirtməmək lazımdır", - deyə o qeyd edib.

**Mövcud müzakirələrin hansısa xarici gücün təsiri ilə baş tutduğu ehtimalına gəlincə, bu barədə suala erməni politoloqun cavabı belə olub**: "Hələlik proses gizli gedir. Amma onu deyə bilərəm ki, Minsk Qrupu həmsədrləri Ermənistandakı iqtidar dəyişikliyinə Qarabağ münaqişəsinin həlli baxımından fürsət kimi dəyərləndirmək istəyir". Şirinyan münaqişənin uzun illərdir həll olunmamış qalmasının Ermənistandan qaynaqlandığını da etiraf edib.

*****

Beləliklə, azərbaycanlı və erməni siyasi şərhçilərin son fikir və təxminləri Dağlıq Qarabağ ətrafındakı situasiyanı daha yaxşı təsəvvür eləməyə imkan verir. Hərçənd, bir sıra detallar yalnız birbaşa sülh danışıqları aparanlara bəllidir. Bir şey dəqiqdir ki, konfliktin, danışıqlar prosesinin bunca uzanması həqiqətən də yalnız Ermənistandan qaynaqlanır.

**Demək, "hərb yoxsa sülh" dilemmasını da İrəvan həll eləməlidir. İşğalçı tərəf müharibəni seçəcəksə, onu da alacaq. 2016-cı ilin 4 günlük aprel savaşı göstərdi ki, Azərbaycan özünün işğal altındakı ərazilərini azad eləməyə hazırdır. Ancaq o halda Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusu verilməsindən söhbət belə getməyəcək...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019

**Avropa Birliyi ABŞ-ın sanksiyalarına baxmayaraq İranla ticarət əlaqələrini qoruyub saxlamaqda qərarlıdır. "Euronews" xəbər verir ki, Almaniya, Fransa və İngiltərə ABD-ın İrana qarşı sanksiyalarından yayına biləcək INSTEX adlanan xüsusi ticarət mexanizmini qurub. Yeni sistemə əsasən AB ölkələri ABŞ dolları olmadan İranla birbaşa ticarət əməliyyatları apara biləcək.**

# Avropa və İran arasında münasibətlərdə yeni mərhələ

## Brüssel İrana alternativ ödəmə sistemi yaradıb, amma ağır şərti var



**O da məlum olub ki, bir neçə aydır hazırlanan proqramın tam şəkildə çalışması üçün daha bir neçə ay lazım olacaq.** Xatırladaq ki, 2015-ci ildə İran və "altılıq" ölkələri arasında əldə olunan nüvə razılaşmasından sonra Tehrana qarşı sanksiyaların böyük bir qismi götürülmüş, İranla ticarət əlaqələri, eləcə də bu ölkəyə yatırım imkanları açılmışdı. Ancaq ötən ilin mayında ABŞ prezidenti rəsmən nüvə anlaşmasından çıxdı və bundan sonra İranla əlaqələri dayandırdı, üstəlik Tehrana qarşı keçmiş embarqoları bərpa etdi, yeni sanksiyalar tətbiq etdi. Lakin Avropa Birliyi ABŞ-dan fərqli olaraq nüvə anlaşmasına sadiq qalıb və Vaşinqtonun tələblərinə baxmayaraq, İranla iqtisadi əlaqələri davam etdirməyə çalışır. Təbii ki, əksər Avropa şirkətləri Vaşinqtonun qəzəbindən çəkindiyi üçün İranla əlaqələri dayandırıb. Lakin indi Brüssel mümkün vasitələrlə Vaşinqtonun sanksiyalarını dəlməyə çalışır. Üstəlik Tehran özü də hədələyib ki, əgər Avropa ölkələri nüvə anlaşmasındakı öhdəliklərini yerinə yetirməsə, Tehran nüvə fəaliyyətlərini bərpa edəcək. İki gün əvvəl İranın Atom Enerjisi Təşkilatının sədri Əli Əkbər Salehi bildirib ki, onlar İranın uranın zənginləşdirilməsi proqramını yenidən işlək vəziyyətə gətiriblər. Əgər Avropa ilə anlaşma davam etməsə, İran nüvə fəaliyyətlərini bərpa edəcək. O, bununla bağlı ali dini liderin tapşırıq verdiyini də qeyd edib.

**Avropa Birliyi isə hələlik Vaşinqtona çox sərt formada olmasa da, yumşaq şəkildə dirənməyə çalışır.** Ötən ilin yayında AB İranla əməkdaşlığa görə sanksiyalara məruz qala biləcək şirkətlərin qorunması ilə bağlı proqramı yenidən aktivləşdirib. Eyni zamanda Vaşinqtonun sanksiyalarına rəğmən İranla əməkdaşlığı davam etdirən şirkətlərə dəstəkləməklə bağlı vəd verib. Çünki Vaşinqton açıq şəkildə bəyan edib ki, İrana qarşı sanksiyalara qoşulmayan şirkətlər cəzalanacaq. Bu səbəbdən də Avropanın bir çox şirkətləri o cümlədən Fransanın enerji nəhəngi Total, həmçinin "Airbus" kimi şirkətlər İrandakı müqavilələrdən çəkilib.

Vaşinqton hesab edir ki, nüvə anlaşması İranın maraqlarına cavab verir. Üstəlik Tehran aktiv şəkildə Yaxın Şərqdə silahlı qrupları dəstəkləyir. ABŞ və onun müttəfiqlərinin maraqlarına təhlükə yaradır, həmçinin bölgə ölkələrini, xüsusən də İsraili birbaşa təhdid edən ballistik raket fəaliyyətlərini inkişaf etdirir.

INSTEX qurumunun mərkəzi ofisi Fransada yerləşəcək. Almaniyadan olan maliyyəçi Per Fischer təşkilata rəhbərlik edəcək. Şirkətin təsisçisi Almaniya, Fransa və İngiltərədir, ancaq təsisçilər gələcəkdə başqa Avropa ölkələrinin də bu proqrama qoşulacağına ümid edir.

İran hökuməti isə yeni sistemi alqışlayıb. XİN rəhbərinin müavini Abbaq Əraqçi deyib ki, INSTEX-in qurulması ilə doğru iş görülüb. Eyni zamanda o deyib ki, İranın da gələcəkdə buna bənzər bir sistem qurması lazım gələcək.

ABŞ hökuməti isə yeni proqramın Vaşinqtonun Tehrana qarşı sanksiyalarına təsir etməyəcəyini düşünür. ABŞ-ın Almaniyadakı səfirliyi bəyan edib ki, Vaşinqton İrana qarşı mümkün ola bilən ən sərt təzyiqin göstərilməsi üçün cəhdlərini davam etdirəcək. Eyni zamanda bu cür proqramların sanksiyalara təsir etməyəcək.

Ancaq Avropa Birliyi ilə İran arasında əlaqələr heç də ürəkaçan deyil. Ötən il Avropada iranlı diplomatlar terror hazırlığı ittihamı ilə həbs olunub. Bu il yanvarın 8-də isə Avropa Birliyi İran kəşfiyyatını qitə ölkələrində yaşayan müxaliflərə qarşı sui-qəsd təşkil etməkdə ittiham edərək sanksiya tətbiq edib. İki İran vətəndaşı və bir kəşfiyyat qurumu "terror təşkilatı" siyahısına salıb.

**Lakin indi Avropa ilə ticarət əlaqələrinin qurulması İran daxilində fikir ayrılığı yaradıb.** Məsələ ondadır ki, Avropa Birliyinin İran qarşısında əsas tələblərindən biri də FATF şəbəkəsinə qoşulmasıdır. Yəni terrorizmə dəstək, terror təşkilatlarına pul köçürmələrinin qarşısını alan beynəlxalq sistemə qoşulma tələb olunur. İran hökumətində isə indi bu məsələdə fikir ayrılığı var. Çünki Hazırda beynəlxalq aləmdə "terrorçu təşkilat" kimi tanınan bir sıra qurumlar İran hökuməti tərəfindən dəstəklənir. Yəni qeyd olunan proqram İranın Yaxın Şərqdə dəstəklədiyi, maliyyələşdirdiyi bir sıra qurumlara yardım göstərməsini məhdudlaşdıracaq. Bu isə hazırkı İran hakimiyyətinin siyasi kursuna müvafiq deyil. Bu mənada indi İran hakimiyyəti dilemma qarşısındadır. Bu həm də hakimiyyət daxilindəki Qərblə yaxınlaşmanın tərəfdarı olan hazırkı hökumətlə ənənəvi inqilab xətti arasında daha bir fikir ayrılığı səbəbidir. İranda iqtisadi vəziyyət pisləşməsi hazırkı "islahat" hökumətinə təzyiqləri də artırır. Və təbii ki, qarşı tərəf də bir qayda olaraq hazırkı vəziyyətin yaranmasında sərt Qərb əleyhdarı kursu əsas səbəb kimi göstərirlər. Lakin indi ABŞ-ın təzyiqləri artdıqca İran hakimiyyətinin "mühafizəkar" qanadı ənənəvi inqilab xəttini daha qabarıq şəkildə müdafiə edir. Ötən illərin təcrübəsi göstərdi ki, Qərbdən İrana qarşı təzyiqlər artdıqca İranda sərt xətt daha da güclənir və populyarlığını artırır.

❑ K.RÖVŞƏNOĞLU,
"Yeni Müsavat"

# Yaxın Şərqdə savaşan azərbaycanlıların acı taleyi

## Son 5 ildə İraq və Suriyaya döyüşməyə gedənlərin aqibəti yaxşı olmayıb

**Azərbaycanda Suriya və İraqda qeyri-qanuni birləşmələrdə döyüşənlərin məhkəmə prosesi hələ də davam edir. 2015-ci ildə Azərbaycanda qanunvericilik dəyişdikdən sonra hökumət xaricdə qanunsuz silahlı dəstələrdə döyüşənlərə qarşı sərt tədbirlərə əl atır. Xüsusən də İŞİD və Suriyadakı silahlı terror dəstələrində savaşanlar saxlanılaraq məsuliyyətə cəlb olunur.**




**Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) şöbə rəisi Suad Mahmudov bildirmişdi ki, Suriyaya gedən Azərbaycan vətəndaşlarının sayı 1000-dən çox olub.** Onun sözlərinə görə, Şimali Qafqazdakı terror qruplaşmalarına qoşulan Azərbaycan vətəndaşlarının sayı onlarla ölçülürdüsə, Əfqanıstan və Pakistana getmiş Azərbaycan vətəndaşlarının sayı 300-ə yaxın, Suriyadakı münaqişə bölgəsinə gedənlərin sayı isə 1000-dən artıq olub.

DTX rəsmisi təkcə ötən il 20 nəfər xaricdəki hərbi münaqişələrdə iştirak etmiş şəxs Azərbaycana qayıdanda saxlanılaraq istintaq orqanlarına təhvil verilib. Hazırda bu şəxslərin istintaqı davam edir.

Yeri gəlmişkən, əgər son bir ilə qədər Azərbaycandan əsasən Suriya hökumətinə müxalif olan qruplarda döyüşmək üçün gedənlərdən danışılırdısa, ötən ildən başlayaraq Bəşər Əsəd hökumətinə dəstək verən qruplarda olan azərbaycanlılar haqda məlumat yayıldı. Yerli mediada ötən il Gəncənin icra başçısı Elmar Vəliyevi və polis serjantını yaralayan Yunis Səfərovun da Suriyada təlim keçdiyi haqda hüquq-mühafizə orqanlarına istinadən məlumatlar yayılıb. Eyni zamanda Y.Səfərovla yanaşı daha bir neçə nəfərin 2013-16-cı illərdə Suriyada hökumətə bağlı qüvvələrin tərkibində təlim keçməsi haqda xəbərlər yayılıb. Həmin şəxslər daha sonra Azərbaycan DTX tərəfindən həbs olunublar.

Qeyd edək ki, azərbaycanlılar daha əvvəl Şimali Qafqaz, Əfqanıstan-Pakistan bölgəsində, 2012-ci ildən sonra isə İraq və Suriyada baş verən cihad münaqişələrinə qatılıb. 2011-ci ildə Suriyada baş verən etirazlar tezliklə silahlı münaqişəyə çevrildi və artıq 2012-ci ildə xarici ölkələrdən Suriyaya savaşmaq üçün gedənlər haqda məlumatlar yayılmağa başladı.

**2013-cü ilin mayında isə ilk dəfə bir qrup azərbaycanlı Suriyada videomüraciət hazırlayaraq həmvətənlərini döyüşmək üçün bu ölkəyə çağırdılar. Bununla da artıq şayiə kimi mövcud olan xəbərlər rəsmiləşdi.**

2013-cü ilin avqustunda isə yerli media orqanlarında Bəşər Əsəd qüvvələrinə qarşı döyüşlərdə 60-dan artıq azərbaycanlının iştirak etdiyi xəbərləri gedirdi. Həmin vaxt bildirilirdi ki, bu döyüşlərdə 30-dan çox azərbaycanlı öldürülüb. Xəbərdə qeyd edilirdi ki, Suriyada hökumət qüvvələrinə qarşı döyüşən azərbaycanlılar bura Azərbaycandan, Əfqanıstandan (Taliban sıralarında döyüş keçmiş) və Şimali Qafqazdan (Rusiyaya qarşı döyüşənlər) gəliblər. Onların hansı yollarla bu ölkəyə aparıldığı dəqiq bilinməsə də, müxtəlif təriqətlər vasitəsilə cəlb edildiyi iddia olunurdu. Hətta xəbərlərdə azərbaycanlıların böyük əksəriyyətinin "Ceyş əl-Mühacirin vəl-Ənsar" diversiya qrupunda cəmləşdiyi deyilirdi. Qrupun əmiri azərbaycanlı Əbu Yəhya Azəri ləqəbli adlı biridir.

**Ancaq 2014-cü ilin yanvarında Suriyanın şimalından hökumət qüvvələrinin çəkilməsindən sonra İŞİD və əl-Qaidənin Suriya qolu ən-Nusra Cəbhəsi qruplaşması arasında başlayan döyüşlərdə hər iki qruplaşmada olan çoxlu sayda azərbaycanlı öldürüldü.** Bundan sonra hökumət ölkədə terror təşkilatlarına qoşulanlara qarşı sərt tədbirlər görməyə başladı. Daha sonra isə qanunvericilikdə dəyişiklik edilərək bu cür fəaliyyətlərə görə həbs cəzaları daha da ağırlaşdırıldı. Bundan sonra çoxlu sayda azərbaycanlı Suriyadan Azərbaycana qayıdarkən həbs olundu və onlara qarşı ağır cəzalar verildi.

**2017-ci ilin yayında İraq ordusunun İŞİD-ə qarşı əməliyyatları başlayanda məlum oldu ki, bu ölkədə İŞİD-in cərgəsində çoxlu sayda azərbaycanlı var.** Avqustun 24-də davam edən türkmənlərin yaşadığı Telafər şəhərinin azad edilməsi əməliyyatları zamanı 300-dən artıq İŞİD silahlısı öldürülüb, 70-dən artıq terrorçu əsir alınıb. Telafer əməliyyatı zamanı İŞİD sıralarında çoxlu sayda azərbaycanlı olub. İraq ordusu ilə döyüşlərdə onlarla azərbaycanlı İŞİD-çilər öldürülüb, bir qismi isə əsir alınıb. O da bildirilirdi ki, Telaferi tərk etmək istəyən 14 azərbaycanlı İŞİD-çi yerli İŞİD-çilər tərəfindən ələ keçirilərək edam edilib.

2017-ci ilin sentyabrında 2017-ci ildə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, general-leytenant Mədət Quliyev yerli mətbuata açıqlamasında 900-ə yaxın Azərbaycan vətəndaşının Suriya, İraq və digər ölkələrdə terrorçu təşkilatlara qoşulduğunu bildirdi. DTX sədri bildirmişdi ki, 84 nəfər azərbaycanlı ölkəyə qayıtdıqdan sonra cinayət məsuliyyətinə cəlb olunub. 195 nəfər isə bu cür əməllərinə görə Azərbaycan vətəndaşlığı hüququndan məhrum edilib, bir çoxu isə döyüş zamanı həlak olub. İraqda Azərbaycan vətəndaşlarının kütləvi olduğu yerdə 300-ə yaxın azərbaycanlı məhv edilib.

**Elə həmin il İraq parlamentinin deputatı Vian Dahkli öz Twitter hesabında İraqda İŞİD-lə əlaqədə şübhəli bilinən 200 Azərbaycanlı qadın saxlanıldığını yazıb.** Daha sonra bu qadınlarla bərabər olan uşaqlar barədə məlumatlar yayılıb və rəsmi qurumlar uşaqların İraqda 19 azərbaycanlı uşağın qaldığı barədə məlumatı təsdiqləyib. Onlardan bir neçəsini ölkəyə gətirmək mümkün olub. Yenə də İraq mediası 3 azərbaycanlı qadının edama məhkum olunduğu haqda xəbər yayıb. Qalanları barədə isə detallı bilgi yoxdur.

**Ancaq hazırda İraq və Suriyada münaqişə tam olaraq başa çatmadığı üçün qeyd olunan rəqəmlərin daha da artması mümkün ehtimaldır.** Digər tərəfdən rəsmi qurumlar münaqişə ölkələrində olan silahlıların Azərbaycana qayıtmadığı, əsasən 3-cü ölkəyə getməyə çalışdığını bildirib. Bu isə o deməkdir ki, rəqəmlər daha da arta və bir çoxu ümumiyyətlə, gizli qala bilər. Yaxın Şərq münaqişələri bütün dünya ilə yanaşı Azərbaycan üçün də çətin və ağrılı bir proses oldu. Daha əvvəl cihad hərəkatında "təcrübəsi" olsa da, ilk dəfə azərbaycanlılar məhz İraq-Suriya münaqişəsində kütləvi şəkildə və hər iki tərəfdən iştirak etdi. Bu isə ölkə daxilində dini zəmində münasibətlərə mənfi yöndə təsir etdi. Bu səbəbdən də dövlət orqanları dini sabitliyi qorumaq, dözümlülük mühitini yaratmaq üçün ciddi işlər görməli olacaq.

❑ KƏNAN,
"Yeni Müsavat"

**Elan**

**Əliyev Ramiz Niyyətağa oğluna Bakı Şəhər İcra Hakimiyyəti Texniki İnvertarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən Sabunçu rayonu, Balaxanı qəsəbəsi, Müsəvi küçəsi 28 "a" ünvanına 2002-ci ildə verilmiş 015441 nömrəli Qeydiyyat Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 25 (7195) 2 fevral 2019

**Yanvarın əvvəllərindən ABŞ ərazisinə hakim kəsilmiş soyuq hava şəraiti daha da kəskinləşib. Ölkənin orta qərbində müşahidə olunan şaxtalar nəticəsində azı 22 nəfər ölüb.**

# İqlimşünas alimlərlə Tramp arasında söz dueli

## Elm adamları prezidentə çaydanla cavab verdilər

"Yeni Müsavat"ın "İnterfaks"a istinadən verdiyi məlumata görə, bəzi insanlar küçələrdə və evlərində donublar, digərləri çovğunun səbəb olduğu qəzalar və bədbəxt hadisələr nəticəsində ölüb. Yüzlərlə insan soyuqdəymə və donvurma ilə xəstəxanalara müraciət edir.

Rokford şəhərində (İllinoys ştatı) termometrin göstəricisi rekord dərəcəyə - mənfi 34 dərəcəyə düşüb. Çikaqoda meteoroloji müşahidələrin yüz illik tarixi ərzində minimum göstərici - mənfi 33 dərəcə qeydə alınıb.

Ekstremal hava şəraiti 250 milyon amerikalının yaşadığı bölgələrdə hökm sürür. Mənfi 17 və daha kəskin şaxtalı havanın təsirini hiss edənlərin sayı isə 90 milyon ətrafındadır. Bir çox bölgələrdə məktəb, dövlət idarələri, müəssisə və muzeylər bağlı qalır. İctimai nəqliyyatın işində ciddi fasilələr yaranıb. Ölkə üzrə 7 mindən yuxarı aviareys ləğv olunub.

Çikaqo şəhərinin meri Rahm Emmanuel əhalini zərurət yaranmasa bayıra çıxmamağa çağırıb. Bir çox yerlərdə bayıra çıxan sakinlərə soyuq havada dərindən nəfəs almamaq barədə rəsmi tövsiyələr verilir.




Çikaqo polisi qarətçilik hallarının artdığını qeyd edir. Belə ki, cinayətkarlar insanların isti paltarlarını, ilk növbədə bahalı gödəkcələrini əlindən alır.

Çikaqoda evsizlər üçün düşərgədə "Nicat ordusu" tərəfindən qurulmuş çadırlardan birində insanların qızınması üçün istifadə edilən qaz balonu partlayıb. Yanğın söndürüləndən sonra şəhərin yanğınsöndürmə xidməti həmin düşərgənin bağlanmasını tələb edib, çünki düşərgədə qaz balonları olması arzuedilməz nəticələrə gətirib çıxara bilər.

"Nicat ordusu" düşərgəsinin təşkilatçıları evsizləri harada yerləşdirməyi götür-qoy edincə bir xeyirxah naməlum şəxs şaxtalı günlərin sonuna kimi 70 nəfər evsiz insanın mehmanxanada qalması haqqını ödəməyi təklif edib. Evsizlər dərhal Çikaqonun cənubundakı mehmanxanada yerləşdiriliblər. Bu xeyirxahlığı etmiş şəxs Çikaqonun hakimiyyət orqanlarından onun adını çəkməməyi xahiş edib.

**ABŞ prezidenti Donald Tramp** isə şaxtalı havalarla bağlı qlobal istiləşmə barədə fikirlərə "ilişib". Qeyd edək ki, Tramp uzun illərdir qlobal istiləşmə ideyasına qarşı çıxır. Hələ 2012-ci ildə Twitter hesabında yazmışdı ki, "20-ci illərdə insanlar qlobal soyuqlaşmaya görə narahat olurdular, indi isə qlobal istiləşmədən danışırlar": "Onların başları xarab olub?"

Tramp dəfələrlə bəyan edib ki, qlobal istiləşmə ilə bağlı məhdudlaşdırıcı tədbirlərdən əsasən Çin udur, çünki heç bir qadağaya məhəl qoymur.

2014-cü ildə isə o yazırdı: "Texas və Luiziana qarın altında qalıb, ölkədə rekord şaxta var. Qlobal istiləşmə çox bahalı saxtakarlıqdır. Qlobal istiləşmə barədə bu bahalı uydurmanı dayandırmaq lazımdır. Planetimiz donur, hər yerdə rekord soyuqlar qeydə alınır, bizim alimlərimiz isə buzlaqlarda ilişib qalıblar".

**Üç gün əvvəl isə Tramp yenidən qlobal istiləşməyə inanmadığını yazıb:** "Ölkənin geniş əraziləri görünməmiş həddə qardan və rekord şaxtadan əziyyət çəkir. İndi bir azca köhnə alicənab qlobal istiləşmədən olsaydı, pis olmazdı".

**Prezidentin yazdıqlarına ABŞ Milli Atmosfer və Okean Tədqiqatları İdarəsinin(NOAA) alimləri cavab veriblər.** Onlar Twitterdə qaynayan çaydan şəkli ilə birlikdə qar və şaxtaların qlobal istiləşmə ilə ziddiyyət təşkil etmədiyinə dair izahat dərc ediblər. Şəkildə çaydan istiləşmiş okeanı, ondan çıxan buxar isə sonradan ABŞ ərazisində qara və fırtınaya çevrilən əlavə rütubəti simvolizə edir. Şəklin altında isə yazılıb: "Qış fırtınaları qlobal istiləşmənin baş vermədiyinin göstəricisi deyil".

Qeyd edək ki, soyuq siklon yanvarın 31-də ölkənin şərqinə doğru hərəkətini davam etdirib. Qərbi Nyu-Yorka 50 santimetr qar yağıb.

**Maraqlıdır ki, fevralın 3-də şaxtalardan əziyyət çəkən rayonlarda kəskin istiləşmənin baş verəcəyi, havanın temperaturunun 27 dərəcə yüksələcəyi gözlənilir.**

**❑ DÜNYA, "Yeni Müsavat"**

# "Koroğlu" stansiyasının qarşısında dayanacaq problemi

## Mais Ağayev: "Körpünün altında dayanan nəqliyyat vasitələri dayanma-durma qaydalarını pozur"

**Metronun "Koroğlu" stansiyasının qarşısında yenə də pik saatlarda nəqliyyat xaosu yaşanır. Bu barədə "Yeni Müsavat"a şikayət edən sürücülər bildiriblər ki, xüsusilə də axşam saatlarında Bakıxanov istiqamətinə hərəkətdə çətinliklə üzləşirlər. Buna səbəb isə ərazidə dayanan taksilər, mikroavtobuslardır.**



Mövcud vəziyyətlə bağlı daha detallı məlumat almaq üçün əraziyə yollandıq. Müşahidə etdik ki, Bakı Nəqliyyat Agentliyi Milli Gimnastika Arenasının dayanacaq məntəqəsində, yəni "Koroğlu" metrostansiyasının piramidalı çıxışının arxasında avtobusların dayanması, hərəkəti üçün dairəvi xab yaradıb. Yolun əks istiqamətində isə müasir standartlara uyğun Koroğlu Nəqliyyat Mübadilə Mərkəzinin tikintisi ilə bağlı lövhə vurulub. Lövhədə yaradılacaq mərkəzin 1 mərtəbəli olacağı qeyd edilib. Tikinti aparıldığı ərazinin ətrafı mühafizə məqsədilə bağlandığı üçün içəridə hansı işlərin aparıldığını görə bilmədik.

### Sürücülər niyə narazıdır?

Mübadilə mərkəzinin tikilməsi səbəbindən kəndlərdən şəhərə gələn avtobuslar Olimpiya Stadionu istiqamətində, metronun çıxışının yanında olan dayanacaqda saxlamalı olurlar. Bu isə həmin istiqamətdə hərəkət edib, sağ yola keçmək istəyən sürücülərə maneə yaradır. Eyni zamanda, ərazidə xeyli sayda taksilərin də dayanması, vəziyyəti bir qədər də gərginləşdirir. Kəndlər istiqamətinə hərəkətdə isə Bakıxanova ayrılan yolda, körpünün altında xeyli sayda mikroavtobus, taksilər dayanır. Bu vəziyyət isə qeyd edilən istiqamətə hərəkət edən sürücülərin narahatlığına səbəb olur.

Taksi sürücüləri ilə söhbətimiz zamanı onların da narazı olduğunu öyrəndik. Bildirdilər ki, Bakı Nəqliyyat Agentliyi onları cərimələməyə hazırlaşır. Bu halla isə onlar razı deyillər. Taksi sürücüsü Mahir Əhmədov bildirdi ki, ərazidə taksilərin dayanması üçün yer yaradılmadan, cərimə yazılarsa, etiraz aksiyası keçirəcəklər: "Burada dayanan taksi sürücüləri keflərindən avtomobili körpünün altına salmırlar. Bizə də xoş deyil ki, gəlib yolun ortasında maşın saxlayaq, avtobus da çıxsın üstümüzə. Hazırda avtobusların dayandığı yerdə taksilər üçün də duracaq yaradılmalıdır. Yalnız bundan sonra bizə cərimə yaza bilərlər ki, yer var, ancaq siz həmin yerdə dayanmırsınız. Yoxsa hazırkı vəziyyətdə ərazidə heç bir qanuni dayanma yeri yoxdur. Uzaq kəndlərə gedənlər də 1 manat verib, taksi ilə gedirlər. Bu həm sərnişinlərə, həm də bizə sərf edir. Sərnişin var ki, burada dayanırıq də... Elə sistem qursunlar ki, hamıya sərf etsin".

Digər taksi sürücüləri də oxşar narazılıqlarını bildirdilər.








**Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev** "Yeni Müsavat"a bildirdi ki, körpünün altında dayanan nəqliyyat vasitələri dayanma-durma qaydalarını pozurlar: "Bu məsələlərlə bağlı şəhərin bir çox yerlərində xüsusi kameralar var. Həmin kameralar növbəti mərhələdə metronun "Koroğlu" stansiyasının ətrafında quraşdırılacaq. Bundan sonra ərazidəki vəziyyət tənzimlənəcək. Yeni mübadilə mərkəzinin tikintisi isə ilin birinci yarısına qədər yekunlaşacaq. Orada müasir infrastruktur qurulduqdan sonra avtobuslar əvvəlki yerinə qaytarılacaq".

**Nəqliyyat eksperti İlqar Hüseynov** mövcud durumla bağlı "Yeni Müsavat"a bildirib ki, bu işlər görülən zaman bir çox məqamlar nəzərə alınmalıdır: "Ora elə bir yerdir ki, şəhərin müxtəlif istiqamətlərinə hərəkət mümkündür. Düşünürəm ki, piramidadan bir qədər irəlidə həqiqətən də xab yaradılmasına ehtiyac var. Çünki həmin istiqamətə avtobusların parklanması, digər nəqliyyat axınına problem yaradır. Hazırda dayanacaq kimi istifadə olunan yer, avtomobillərin hərəkətinə mane olur. Bu problemi aradan qaldırmaq üçün digər ərazidə müvafiq dayanacağın qurulmasına ehtiyac var. Bu məsələ daha öncə də gündəmə gəlib. Paralel olaraq ərazidə həm taksilər, həm də kiçik tutumlu avtobuslar dayanır. Nəticədə bunlar da hərəkət axınına maneə yaradırlar. Yeni parklanma piramidanin sol tərəfinə keçirilərsə, orada taksilərin də dayanması üçün şərait yaranar. Sözsüz ki, taksi durağını yaradıb, xidməti yüksək səviyyədə qurmaq olar. Belə edilərsə, nəqliyyatın axınının intensivliyi təmin olunar. Müvəqqəti olaraq ola bilsin ki, vətəndaşların narazılığı yaranacaq. Sərnişinlər də öz rahatlığını istəyir. Bunu da nəzərə almaq lazımdır. Ona görə də işlər bir qədər də sürətlənməlidir".

**❑ Əli RAİS, "Yeni Müsavat"**
**Fotolar müəllifindir.**

YENİ MÜSAVAT

Son səhifə

N 25 (7195) 2 fevral 2019



## Vanna otağında Elvis Preslinin "muzeyini" düzəltdi

**Britaniyalı bir kişi danışıb ki, institutun birinci kursunda oxuyanda tanışının evinə baş çəkib və vanna otağının dekorasiyasından dəhşətə gəlib. Onun hekayəsini "The Mirror" nəşri paylaşıb. Yeni dostlar tapmaq üçün tələbə kurs yoldaşının evinə qonaq gedib. "Ev kilsə stilində idi, amma bu, məni çəkindirmədi", - kişi bunu belə xatırlayır. "Biz birgə çox yaxşı vaxt keçirirdik. Baxmayaraq ki, ordakı bəzi insanların hərəkəti mənə qəribə göründü".**

Hamı sağollaşıb getməyə hazırlaşanda ev sahibi onlara deyib: "Dayanın! Siz hələ mənim vanna otağımı görməmisiz. Siz onu görməlisiz. Çünki mən onu hamıya göstərirəm".

Qonaqlar düşünüb ki, onun bu təklifinə etiraz etmək düzgün olmaz və onun arxasınca gediblər. Sitat: "Biz qapını açdıq və bu balaca yerə girdik. Ordakı hər künc Elvis Preslinin yaradıcılığına dair əşyalarla dolu idi. Divarda, tavanda, unitazda müğənniyə aid müxtəlif posterlər, biletlər, fotolar, albomlar, mahnıların mətnləri və digər əşyalar vardı. Ən gözəgəlimli yerdə isə amerikan müğənninin robotu yer almışdı ki, bu da ordakı insanları qorxudub".

# Duş almaq stressin düşmənidir

**Türkiyəli Psixoloq Prof. Dr. Gülden Güvenç stressdən uzaq olmaq üçün duş almağın faydalarından danışıb. Onun sözlərinə görə imtahan verənlər də stress və depressiyadan uzaqlaşmaq üçün duş almağı seçim edə bilər. Bu sadə prosedur imtahan həyacanını azaltmağa kömək edir.**



Duş alarkən diqqət yetirilməsi lazım olan su istiliyi və duşda keçirilən müddətdir. Çox isti su dəridə tarazlığı pozaraq, bədəndəki təbii yağın yox olmasına səbəb olur. Uzun müddət suyun altında qalmaq isə dəri sağlamlığına mənfi təsir göstərə bilər. Bu baxımdan çox duşda olmamaq və duşdan sonra istəyə uyğun bitki mənşəli nəmləndiricilərdən istifadə etmək lazımdır. Dəri sağlamlığı üçün çirkli və ya küləkli yerlərdə olmamaq məsləhətdir.

**Onu da qeyd etmək lazımdır ki, günəş şüaları, xüsusilə bədəndə saxlanılan D vitamininin sintezləşməsində və sümüklərin inkişafında əhəmiyyətli rol oynayır.**

# Evləndiyi qadın nəvəsi çıxdı...



**ABŞ-ın Florida ştatında ağlasığmaz bir hadisə baş verib. Özündən 44 yaş kiçik bir qadınla evli olan adam keçmiş ailə albomuna baxanda şok həqiqətlə üzləşib. Həmin həqiqət isə qadının onun bioloji nəvəsi olmasıdır.**

"İndependent" qəzetinin xəbərinə görə, 68 yaşlı milyonerlə 24 yaşlı həyat yoldaşı bu həqiqəti üç ay öncə fərq ediblər. Hadisə belə baş verib: ər-arvad köhnə ailə albomuna baxırlarmış. Kişi ilk həyat yoldaşından olan və illərdir üzünü görmədiyi oğlunun şəklini arvadına göstərərək, "şəkildəki böyük oğlumdur" deyib. Qadın isə "bu adam mənim atamdır" söyləyib. Hər ikisi bu gerçək qarşısında şoka düşsələr də, boşanmağı düşünmürlər. Cütlük bir evləndirmə agentliyində tanış olub. Kişi həyat yoldaşı ilə evlilik anı barədə bunları deyib: "Onun şəklini ilk dəfə gördüyüm zaman özümü qəribə hiss etdim, dejavu oldum(daha öncə bu anı yaşama hissi). Tanımırdım, amma ailəmdən biri kimi idi sanki".

**Maddi problemlər ucbatından 2009-cu ildə ikinci evliliyini də bitirən adam iki il sonra böyük lotereya qazanaraq milyoner olub.**





**QOÇ** - Gün boyu heç nədən çəkinməyin. Əmin olun ki, qarşınızda duran bütün maneələri dəf etməyə gücünüz yetəcək. Bir şərtlə ki, günaha batmayasınız. Saat 16-dan sonra yeniliklər gözlənilir.


**BUĞA** - Hər bir qərarda imanlı olmağa çalışın. Kimisə acılamaq, zəif tərəfindən vurmaq, passivlikdə günahlandırmaq olmaz. Ümumiyyətlə, ünsiyyətdə ədalət prinsiplərindən qidalanın.


**ƏKİZLƏR** - Gələcək üçün nəzərdə tutduğunuz planları indidən götür-qoy etməlisiniz. Bu istiqamətdə müəyyən məsləhətləşmələr aparmaq da olar. İşdən sonra sevgi görüşləri səmərəlidir.


**XƏRÇƏNG** - Ətrafınızda baş verən hadisələrin məcrasından çıxması ovqatınızı aşağı salmamalıdır. Axı həyatın enişi də, yoxuşu da labüddür. Əsas planları günün ikinci yarısına saxlayın.


**ŞİR** - Fəaliyyət istiqamətində tənbəlliyi bir kənara atıb aktivliyinizi artırın. Ətrafınızda olanları başa düşməyə çalışın. Ola bilsin ki, gün ərzində müəyyən gəlir də əldə edəsiniz. Əsas odur inamlı olasınız.


**QIZ** - Hansısa yeni işlərə başlamaq, uzaq yola çıxmaq, riskli pul sövdələşmələri aparmaq yolverilməzdir. Çünki bu gün daxili enerjiniz yalnız gündəlik qayğılarla məşğul olmağa yetəcək.


**TƏRƏZİ** - Bu gündən fevral ayının uğurlu zaman kəsiyinə daxil olacaqsınız. Odur ki, donub qalan bütün planlarınızı hərəkətə gətirməlisiniz. Tək əldən səsin çıxmadığını da nəzərə alın.


**ƏQRƏB** - Günün ümumi mənzərəsi düşərli görünür. Bu isə hər bir məsələdə şansların olacağını bildirir. Odur ki, aktivliyinizi artırmalısınız. Saat 17-dən sonra bütün dəvətləri təxirə salın.


**OXATAN** - İş rejimi imkan versə, fəaliyyətə ara verib müqəddəs ziyarətgahlarımıza, dünyadan getmişlərinizin qəbirlərinə baş çəkin. Axşama yaxın bir neçə yeniliyin şahidi olacaqsınız. Əşyalarınızı qoruyun.


**OĞLAQ** - Hər bir hərəkətinizi tənzimləməyə çalışın. Xüsusən də həmkarlarınızla münasibətdə mülayim olun. Əks təqdirdə saat 12-16 aralığında qalmaqalla üzləşməli olacaqsınız. Savab işlərinizi artırın.


**SUTÖKƏN** - Əgər daxili orqanlarınız qaydasındadırsa, qripdən uzaqsınızsa, gün ərzində hansısa problemlə üzləşməyəcəksiniz. Risk tələb edən məsələlərdə etibarlı dostlarınıza arxayın ola bilərsiniz.


**BALIQLAR** - Nahara qədər ətrafınızda baş verənlər ovqatınıza müsbət təsir göstərməyəcək. Buna baxmayaraq, təmkinli olsanız, xəta sovuşacaq. Saat 15-dən sonra maraqlı təkliflər gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kişilər daha çox ağlamalıdır



**Ağlamaq ürək boşaltmağın bir yolu olmaqdan başqa həm də sağlamlığa xeyir imiş. Lakin heç də bütün alimlər belə düşünmürlər. Son 140 ildə ağlamaq haqqında mətbuatda dərc olunmuş məqalələrin təhlili göstərib ki, yazıların 94 faizində onun xeyrindən bəhs olunub. Xərçəng, astma və yüksək qan təzyiqi kimi xəstəliklərin kifayət qədər ağlamamaqla bağlı olduğu söylənir. Alimlər kişilərə daha çox ağlamağı məsləhət görürlər. Hollandiyanın Tilburq şəhərindən olan alim yazır ki, orta hesabla bir qadın il ərzində 30-64 dəfə ağlayır. Kişilər üçün bu rəqəm ildə 6 dəfədən 17 dəfəyədəkdir. Vingerhoets güman edir ki, kişiləri ağlamaqdan saxlayan testosteron hormonudur və əksinə prolaktin maddəsi qadınların ağlamasına kömək edir. Böyüklərin ağlaması elmi cəhətdən araşdırılmayıb və bunun sağlamlıq üçün nə qədər yaxşı bir şey olduğu bəlli deyil. Aparılmış rəy sorğuları göstərir ki, adamların 60-70 faizi ağlamağın onları yüngülləşdirdiyini bildirib.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755